Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası




# Azərbaycanın xilaskarı və memarı Heydər Əliyev

Mərkəzi kitabxanalarının uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

Bakı - 2020

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Azərbaycanın xilaskarı və memarı Heydər Əliyev:** Kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.R.Məmmədli; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. -Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2020.- 65s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Tərtibçidən

Hər bir xalq görkəmli şəxsiyyətləri ilə tanınır. Onlar xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirir. Dünyanın zənginliyi məhz bənzərsiz şəxsiyyətlərdir, onların əməllərinin sayəsində dünyanın nuru artır. Tariximizin ən çətin və keşməkeşli dönəmlərində Azərbaycanın və xalqımızın nicatı, quruluşu və xoşbəxt gələcəyi naminə hakimiyyətə qayıtmış ulu öndər Heydər Əliyev məhz belə bənzərsiz dahi tarixi şəxsiyyətdir. Ana dilimizin dövlət dili kimi tətbiqində, onun imkanlarının genişləndirilməsi və Azərbaycan xalqının ən böyük sərvəti kimi dəyərləndirilməsində Heydər Əliyev şəxsiyyətinin rolu danılmazdır. Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Heydər Əliyev Azərbaycan tarixinin yetişdirdiyi ən nadir simalardan biri, türk dünyasının və ümumən sivil dünyanın qüdrətli şəxsiyyətlərindən biridir. Tarixə Azərbaycan xalqının ümummilli lideri kimi daxil olmuş bu əvəzolunmaz insan liderlərə məxsus ən ali keyfiyyətlərə malik idi. Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan bu gün dünya miqyasında sivil, hüquqi, demokratik, dünyəvi bir respublika kimi tanınır və böyük perspektivlərə malik bir ölkə kimi qəbul edilir. Heydər Əliyevin birbaşa rəhbərliyi və qayğısı sayəsində Azərbaycanda XX əsrin 70-80-ci illərində milli özünüdərkin yüksəlişi başlanmış, yazıçı və şairlərin əsərlərində milli ruha, millət və xalq anlayışlarına, Azərbaycan dili ilə bağlı məsələlərə önəm verilmiş, dünya azərbaycanlılarının təşkilatlanması, soydaşlarımızla Azərbaycan arasında əlaqələrin qurulması istiqamətində xeyli işlər görülmüşdür. Respublikamız dövlət müstəqilliyini bərpa etdikdən sonra isə milli birliyin təminatı, dünya

azərbaycanlılarının vahid milli mənafe ətrafında birləşməsi dövlət quruculuğunun əsas vəzifələrindən biri kimi ortaya çıxmışdı. Təqdim olunan vəsaitdə ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideyasının inkişafında xidmətləri ilə əlaqədar kitabxanalarda həyata keçirilən kütləvi tədbirlər haqqında tövsiyələr öz əksini tapmışdır. Bu metodik vəsait Azərbaycanımızın gələcəyi olan gənclərimizə nümunə olacaq milli öndərmizin adının əbədiləşdirilməsinə bir töhfədir. H.Əliyev elə bir şəxsiyyət və lider olmuşdur ki, onun irsinin öyrənilməsi və təbliği ümumdövlət, ümumxalq işidir və bunun üçün elmi-tədqiqat institutlarına və xüsusi akademiyaya ehtiyac var. Yüksək milli-əxlaq nümunəsi olan ümummilli liderimiz Heydər Əliyevin fenomenal irsi və mənalı həyat yolunun fəal təbliği bu gün xüsusi əhəmiyyət kəsb edir. Gənc nəsli, uşaq və yeniyetmələri milli, mənəvi, əxlaqi dəyərlərimizə sevgi ruhunda tərbiyə etmək üçün biz Heydər Əliyev şəxsiyyətinə müraciət etməliyik və bu dahi insanın həyatının əbədi milli örnək kimi uşaq və yeniyetmələr arasında geniş təbliğ olunmasına çalışmalıyıq. Yubileylə əlaqədar il ərzində bütün mədəniyyət ocaqlarında silsilə tədbirlər keçirilməsi nəzərdə tutulmuşdur. Yaxşı olar ki, hər bir kitabxanaçı vəsaitdə verilmiş müxtəlif tədbir formalarından istifadə etməklə ulu öndərimizin şanlı həyat yolunu öz oxucularına tanıtsın. Bu vəsaiti hazırlamaqda əsas məqsəd uşaqları, gənc nəsli Heydər Əliyev irsi ruhunda tərbiyə etmək, onları vətənpərvərlik ruhunda yetişdirməkdir. “Azərbaycanın xilaskarı və memarı Heydər Əliyev” adlanan metodik vəsait “Giriş” və “Keçiriləcək tədbirlər” hissəsindən ibarətdir. Vəsaitin “Giriş” hissəsində bu böyük şəxsiyyətin fəaliyyətindən, həyat və yaradıcılığından söhbət açılır. Vəsaitin ikinci hissəsində yubileylə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən bəhs olunur.

# Giriş

Hər bir millət, hər bir dövlət yaşam tarixində torpağını, xalqını sevən, onu mübarizə meydanında qələbəyə, çətin anlarda işığa doğru aparan rəhbərə, şəxsiyyətə ehtiyac duyur. Sözün əsl mənasında hər bir dövlətin bir dövlət olaraq formalaşmasında, millətin millətlər sırasında mətin dayanmasında böyük şəxsiyyətlərə daim ehtiyac var. Azərbaycan mədəniyyətinin və zəngin tarixi irsimizin dünya ictimaiyyətinə tanıdılması Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Azərbaycanın adı bu gün dünya müstəvisində öndə gedən dövlətlər sırasında məğrur durur. Daim bu torpaq, bu millət dahilər, onun adını zirvələrə ucaldan şəxsiyyətlər yetirib. "Heç bir millət şəxsiyyətsiz yaşaya bilməz". Bu fikir Azərbaycan adını öndə gedən dünya ölkələri sırasına yazan, öz uzaqgörənliyi ilə dünya siyasətçilərini daim heyrətə gətirməyi bacaran, millətin hər bir nümayəndəsini ürəkdən sevən dahi şəxsiyyət, ulu öndər Heydər Əliyevə məxsusdur. Doğru deyiblər ki, zaman hər şeyi yerbəyer edir, hər şeyin, hər kəsin doğru qiymətini verir. İllər keçdikcə, ümummilli liderimiz Heydər Əliyevin böyüklüyünü, müdrikliyini, xalqını, vətənini necə bir məhəbbətlə sevdiyini daha çox anlayırıq. Bu siyasət nəhənginin fəaliyyəti bütün bəşəriyyətin xoşbəxt gələcəyi uğrunda mübarizəyə həsr olunmuşdur. Heydər Əliyev bəşəriyyətin sülh, əmin-amanlıq, dostluq və firəvanlıq içində yaşaması üçün çox işlər görmüşdü. Gəlin aşağıdakı xronikaya nəzər salaq. Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycan Respublikasının Naxçıvan şəhərində anadan olmuşdur. O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir. 1941-ci ildən Heydər Əliyev Naxçıvan

MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş və 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir. Bu dövrdən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. Həmin illərdə o, Leninqrad şəhərində xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olmuşdur. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur. Heydər Əliyev iyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir. Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir. 1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər

Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Azərbaycanın o zamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi. Heydər Əliyev dörd dəfə Lenin ordeni, Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif edilmiş, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adını almış, bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunmuşdur. 27 mart 1997-ci il Kiyevdə Azərbaycanın dövlət başçısına Ukraynanın ali mükafatı “Yaroslav Mudri” ordeni təqdim edilmişdir. 13 aprel 1999-cu il Prezident Heydər Əliyev Türkiyənin ən nüfuzlu mükafatı “Atatürk Sülh Mükafatına” layiq görülmüşdür. 20 yanvar 2001-ci il Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə Moskva Dövlət Uniersitetinin “Fəxri professoru” adı verilmişdir. 3 aprel 2003-cü il Azərbaycan Prezidenti Heydər Əliyev Rusiya

Federasiyasının Təhlükəsizlik, Müdafiə və Hüquq Qaydası Problemləri Akademiyasının professoru və həqiqi üzvü seçilmiş, Y.V.Andropov adına mükafata layiq görülmüşdür. 10 may 2003-cü il Rusiyanın yüksək mükafatı – Müqəddəs Apostol Andrey Pervozvannı ordeni ilə təltif olunması barədə fərman imzalanmışdır.

Əsl vətəndaş, tarixi şəxsiyyət və ümummilli lider. Bu üç fenomen keyfiyyətin daşıyıcısı, qüdrətli və böyük insan Heydər Əliyevin Azərbaycan xalqının tarixi taleyində oynadığı rol misilsizdir. Türk dünyasının fəxri olan ulu öndər H. Əliyev də XX əsrdə Azərbaycan xalqının yetirdiyi böyük dühalardan biri kimi ehtiramla xatırlanır. Zaman ötdükcə, illər keçdikcə bir çox meyarlar, prinsiplər dəyişir, ancaq obyektiv tarixi meyillərin və həqiqətin meyarı isə dəyişməz qalır. Odur ki, Azərbaycan xalqının ümummilli lideri, dərin zəkası və rəhbərlik etmək istedadı, uzaqgörənliyi və nüfuzu ilə bütün dünyanı heyran qoymuş ulu öndər H. Əliyev haqqında keçmiş zamanda danışmaq mümkün deyil. H. Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Onun siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz qabağındadır. Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə H. Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əsas qanunu Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir. Bu uğurlar paytaxtımızın daim

yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə, eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır. Heydər Əliyev çox maraqlı, mürəkkəb, zəngin, keşməkeşli bir ömür yolu keçmiş, həyatın bütün çətinliklərindən qalib çıxmış, öz zəhməti, zəkası, fitri qabiliyyəti ilə ən yüksək zirvəyə yüksəlmişdir. Bu uca zirvənin yolları daşlı-kəsəkli olsa da, polad iradəsi, dönməz xarakteri, şəxsiyyət bütövlüyü bu zirvəni fəth etməkdə ona kömək etmişdir. Bütün dünyanın etiraf etdiyi böyük dövlət xadimi, görkəmli siyasətçi, müstəqil Azərbaycan dövlətinin memarı, zəmanəmizin nadir şəxsiyyətlərindən biri Heydər Əliyev çox zəngin irs qoyub getmişdir. Xalqımızın mənəvi sərvəti olan bu zəngin irsi araşdırdıqca respublikamızın son 50 illik həyatında bu nəhəng şəxsiyyətin öz xalqına qırılmaz tellərlə bağlı olduğu, onu ürəkdən sevdiyi, Azərbaycanın inkişafı və tərəqqisi naminə böyük işlər gördüyü, bütün varlığını, həyatını Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə həsr etdiyi göz önünə gəlir. Özünün zəngin siyasi fəaliyyəti sayəsində ölkəmizin hərtərəfli inkişafı prosesinə qüvvətli təkan verərək, onu daim yüksəliş yoluna çıxaran Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz tarixi xidmətlərini, o cümlədən xalqımızın müstəqillik arzusunun həyata keçməsində, milli dövlətçilik ideyasının gerçəkləşdirilməsində və müasir Azərbaycan dövlətinin yaşadılmasında müstəsna rolu olmuşdur. Tarixin xalqımıza bəxş etdiyi dahi şəxsiyyətin, müasir Azərbaycanın xilaskarı və memarı, ümummilli liderimiz Heydər Əliyevin bütün fəaliyyətinin məqsədi Azərbaycanı güclü, demokratik dövlətə çevirmək və xalqına firavan həyat bəxş etmək idi. Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü onun şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Onun Azərbaycana otuz ildən çox rəhbərliyi dövründə ölkəmiz bütün

sahələrdə böyük inkişaf yolu keçib. O, bütün həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr etmişdir. Ulu öndər hər zaman bu fikri səsəndirirdi: "Azərbaycan dinindən, irqindən, milli mənsubiyyətindən asılı olmayaraq hər bir azərbaycanlının vətənidir". Bu sözlər Heydər Əliyevin nə qədər tolerant bir şəxsiyyət olmasından xəbər verirdi. Biz mədəniyyət işçiləri olaraq deyə bilərik ki, Azərbaycan mədəniyyətinin ən böyük nailiyyətləri görkəmli siyasət və dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Məhz buna görə də Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illəri mədəniyyətimizin tarixində yeni intibah dövrü adlandırmaq olar.

Heydər Əliyevin Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan kitabxana quruculuğu sahəsində də, misilsiz xidmətləri vardır. XX əsrin II yarısında respublikada kitabxana şəbəkələrinin inkişafı, kitabxanaların mərkəzləşdirilməsi, kitabxana fondlarının inkişafı, əhaliyə kitabxana xidmətinin yaxşılaşdırılması, kitabxanaların maddi-texniki bazasının və kadr potensialının möhkəmləndirilməsi istiqamətində Heydər Əliyevin gördüyü işlər danılmazdır. Müstəqillik dövründə kitabxanaların qorunub saxlanılması, kitabxana işinin inkişaf istiqamətləri və dövlətin kitabxana siyasətinin formalaşmasında Heydər Əliyevin rolu böyükdür. Ulu öndər kitab və kitabxana işinin böyük mədəni əhəmiyyətini yüksək qiymətləndirmiş, onu ölkəmizin ümumi mədəniyyətinin əsas göstəricisi kimi qiymətləndirmişdir. Bu da Heydər Əliyevin yüksək elmi, mədəni və intellektual səviyyəsi ilə, bəşəri xarakter daşıyan hadisələri düzgün qiymətləndirə bilmək istedadı ilə şərtləşir. Heydər Əliyev həmişə çıxışlarında yazıçı və şairlərimizin, alimlərimizin, mədəniyyət xadimlərimizin böyük potensiala malik olduğunu bildirmiş, Azərbaycan xalqının təhsillənməsində, biliklənməsində, elm və mədəniyyətimizin, mənəviyyatımızın inkişafında böyük rolu olduğunu bildirmişdir.

İftixar hissi ilə demək olar ki, Heydər Əliyev respublikaya rəhbərlik etdiyi 34 illik dövrdə böyük təşkilatçılıq, nəhəng quruculuq işləri ilə yanaşı, zəngin elmi-nəzəri, mənəvi bir irs yaratmışdır. Bu irs qiymətli mənəvi sərvət kimi elmimizin və mədəniyyətimizin "qızıl fondu" na daxil edilmişdir. Müasir şəraitdə ölkəmizin gələcək inkişaf yolunu işıqlandıran bu zəngin irsin öyrənilməsinə böyük ehtiyac hiss edilməkdədir. Respublikamızın vətəndaşlarının, ziyalılarının, alimlərin, mütəxəssislərin, əhalinin bütün təbəqələrinin, xüsusilə vətənimizin gələcəyi olan gənclərin bu irsi dərindən mənimsəməsinə ciddi ehtiyac duyulmaqdadır. Heydər Əliyevin elmimizə, tariximizə, dilimizə, milli ideologiyamıza, soykökümüzə həsr edilmiş dərin məzmunlu əsərləri, ideya və fikirləri elm və mədəniyyətin bütün sahələrində aparılan elmi araşdırmaların metodoloji əsasıdır. Bu əsərlər azərbaycanşünaslığa böyük hədiyyədir. Heydər Əliyevin nəzəri irsi, həmçinin Azərbaycan dövlətçiliyinin yaranması, qorunması və inkişaf etdirilməsinin əsasıdır. Bu əsərlər siyasi tarix, azərbaycançılıq, vətəndaşlıq, dövlət quruculuğu, vətən sevgisi, vətənə hədsiz məhəbbət dərsliyidir. Ulu öndərin hər bir əsəri böyük əhəmiyyətə malikdir. Əsrlər keçəcək, illər bir-birini əvəz edəcək, nəsillər dəyişəcək, bu əsərlər isə yaşayacaq, neçə -neçə nəsillərə, Azərbaycan xalqının gələcəyinə xidmət edəcəkdir. Çünki bu əsərlər zamanın sifarişidir, xalqın tarixidir, salnaməsidir. Bu əsərləri zaman özü yaratdığından daim yaşayacaq, gələcəyə işıq saçacaq. Ölkəmizin siyasi həyatında özünəməxsus yeri olan Yeni Azərbaycan Partiyasının yaranması və təşəkkül tapması milli tariximizdə görkəmli yer tutan ulu öndər Heydər Əliyevin şərəfli adı ilə bağlıdır.

Tarixi zərurətdən yaranmış Yeni Azərbaycan Partiyası elə bir dövrdə formalaşmışdır ki, müstəqilliyimiz, milli varlığımız real təhlükə qarşısında idi. Xalqımızın əsrlərdən bəri ürəyində

yaşatdığı azadlıq amallarını beşiyindəcə boğmağa cəhd göstərən qara qüvvələr heç nədən çəkinməyərək ən çirkin vasitələrə əl atırdılar. Ulu öndərin "dünənin, bu günün, gələcəyin partiyası" deyə həm keçmişini, həm bu gününü, həm də gələcəyini müəyyən etdiyi Yeni Azərbaycan Partiyasının xalq, dövlət qarşısındakı xidmətləri bu təşkilatın cəmiyyətdəki mövqeyini get-gedə daha da möhkəmləndirir, xalqın bu partiyanın ideoloji – siyasi xəttinə dəstəyini gücləndirir.

Xalqımız maddi və mənəvi sıxıntı məngənəsində boğulduğu, ölkə iqtisadi, siyasi, sosial, hərbi böhran keçirdiyi vaxtlarda onun yeganə ümid yeri məhz Heydər Əliyev olmuşdur. Ulu öndər həmişə vətəni, xalqı ilə birlikdə olmuşdur. Heydər Əliyevin həyata keçirdiyi şərəfli xilaskarlıq missiyası Azərbaycanın müstəqilliyini əbədi, dönməz və sarsılmaz etdi. Böyük natiqlik qabiliyyətinə, dərin zəkaya, məntiqi ardıcıllığa, iti zehnə, möhkəm yaddaşa malik olan bu böyük insan öz əsərlərini xalq qarşısındakı çıxışlarında, dinləyicilərlə üzbəüz, onların qarşısında, onların iştirakı ilə yaratmışdır. Heydər Əliyevin hər bir nitqi, hər bir çıxışı xalqla təmasda, ictimai-siyasi yığıncaqlarda, izdihamlı mitinqlərdə, əsgər səngərlərində, qaçqın düşərgələrində, rəsmi dövlət tədbirlərində, beynəlxalq məclislərdə yaranmış və Azərbaycanda dövlət quruculuğu proqramının, milli dövlətçilik ideologiyasının əsasını təşkil etmişdir. Heydər Əliyev kimi zəngin irsi, çoxsaylı əsərləri olan dövlət xadimi çox azdır. Bu əsərlərdəki elmi fikirlər ulu öndərin çox geniş mütaliə dairəsinə, çox zəngin və dərin biliyə, elmi məlumata malik olan bir şəxsiyyət və görkəmli ziyalı olduğunu sübuta yetirir. Heydər Əliyev elə nadir şəxsiyyətlərdəndir ki, tarix belələrinin əməlləri, fəaliyyəti ilə yaranır. Onun keşməkeşli həyatı, zəngin bioqrafiyası isə bütöv bir epoxanın canlı salnaməsidir. Bu salnamənin nə az, nə çox – düz 34 illik bir dövrünü əhatə edən və xalqımızın qadir, yaradıcı əməyini

təcəssüm etdirən səhifələri rəhbərin şərəfli və mənalı ömrünün unudulmaz anlarıdır. Heydər Əliyev zəmanəsinin böyük filosofu idi. Onun fəlsəfəsi sülh fəlsəfəsi idi.

Heydər Əliyev şəxsiyyətini dəyərləndirmək cəhdində olmaq hardasa tarixə, zamana, gələcəyə qiymət vermək iddiası qədər çətindir. Onun yorulmaz fəaliyyətinin Azərbaycan elminin müxtəlif sahələri ilə bağlı əlaqələrinin coğrafiyası və tarixi çox genişdir. Bu tarixi şəxsiyyəti, fenomeni sözlə səciyyələndirmək çətindir. Çünki Heydər Əliyev yalnız bir dövləti idarə edən siyasi xadim, rəhbər deyil, həm də milyonlarla insanı böyük ideallar ətrafında səfərbər edən bir dövlət qurucusu, tarix memarıdır. Onun bütün həyatı, fəaliyyəti, məqsəd və arzuları bu idealın dövlət quruculuğu, tarix yaradıcılığı idealının ətrafında cəmlənmişdir. Heydər Əliyev Azərbaycan elminin hamisi və böyük mütəfəkkir idi. Heydər Əliyevin varlığı xalqa, onun mədəniyyətinə xidmətdən yoğrulmuşdur. Ulu öndərin incəsənətə, mədəniyyətə, teatra, ədəbiyyata göstərdiyi xidmətlər unudulmazdır. O, sənətdə, ədəbiyyatda həmişə tərəqqi və irəliləyiş yolunu seçməyi vacib sayardı. Doğrudan da, Heydər Əliyev kimi görkəmli şəxsiyyətlər xalqımızın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər. Azərbaycanın dövlətçilik tarixində müstəsna xidmətləri olan, ideyaları, idarəçilik təcrübəsi bu günümüzə, sabahımıza bələdçilik edən ümummilli lider Heydər Əliyevin siyasi irsi o qədər zəngin, mənalı və dəyərlidir ki, hələ bir neçə on illər bundan sonra da nəsillər bu varislik xəzinəsindən istifadə edəcəklər. Ulu öndərin uzaqgörən siyasəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpüyə, dünyanın dinamik inkişaf edən ölkələrdən birinə çevrilmişdir. Adı həmişə milli dövlətçiliyimiz, müstəqillimizlə qoşa çəkilən, fenomen siyasətçi kimi təcrübəsi daim öyrənilən

Heydər Əliyev min ildən bir tanrının insanlara bəxş etdiyi müdrik, lider olduğunu fəaliyyəti ilə təsdiqləyən dahilərdən biri, bəlkə də birincisidir. Ölkəmizdə müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır. "Mən çox sınaqlardan keçmiş bir adamam və həyatımı da özümə yox, xalqıma həsr etmişəm" söyləyən, həyatının mənasını Azərbaycan xalqına, dövlətçiliyinə xidmətdə görən ümummilli lider Heydər Əliyevin ömür yolu əslində əsrlərə sığmayan bir epoxadır. Onun söylədiyi "mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam" sözləri ilə bir daha bildirirdi ki, hansı sahədə çalışmasından asılı olmayaraq Azərbaycanın adına, vədinə sadiq əsgəri kimi xalqının xoşbəxtliyi, müstəqilliyi naminə hər çətinliyə həmişə hazır olmuşdur. O, heç bir zinətlə ölçülə bilməyəcək qədər qiymətli ideyaları, qətiyyəti, sağlam azərbaycançılıq məfkurəsi ilə Azərbaycan xalqını ardınca aparan ölməz sərkərdə, komandan olduğunu əməli fəaliyyəti ilə təsdiqlədi.

Dünya azərbaycanlılarının birliyini təmin edə biləcək ən mühüm və təsirli vasitə vahid ideologiyanın olmasıdır. Bunu çox gözəl anlayan ulu öndər Heydər Əliyev xalqı bir ideya, bir məqsəd ətrafında birləşdirmək üçün məhz "Azərbaycançılıq" ideologiyasını seçmişdi. İdeologiya xalqın milli-mənəvi varlığının ilkin əlamətlərindən olub, xalqın kimliyini əks etdirən təfəkkür, adət və inanclar sistemidir. Dil, ərazi, din və ideoloji birlik xalqın, millətin və dövlətin tarixi varlığının əsas atributlarıdır. Bütün sahələrdə olduğu kimi kitabxana işi sahəsində də qəbul edilmiş rəsmi sənədlərdə ulu öndər Heydər Əliyev irsinin və milli ideologiyanın təbliğinə xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli Sərəncamı ilə imzalanmış "Azərbaycan

Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın ayrı-ayrı bəndlərində ulu öndər Heydər Əliyevin unikal dövlət və mədəni quruculuq təcrübəsinin, intellektual və mənəvi irsinin respublikanın və dünyanın rəqəmsal irs fondlarına daxil edilməsi, ümummilli lider Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" çoxcildli kitabının biblioqrafik göstəricisinin və elektron nəşrinin hazırlanması, ümummilli lider Heydər Əliyev haqqında ən çox soruşulan kitabların informasiya daşıyıcılarına köçürülməsi və s. Ulu öndər Heydər Əliyev irsinin və azərbaycançılığın təbliği ilə bağlı kitabxanaçıların üzərinə bir sıra mühüm vəzifələr düşür və bu istiqamətdə bütün vasitələrdən istifadə olunmalı, təbliğatın ən müxtəlif üsulları həyata keçirilməlidir. Ümummilli liderin siyasi fəaliyyəti onun davamçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir və Azərbaycan xalqını daha da xoşbəxt gələcəyə doğru aparır. Məhəmməd Füzulinin 500 illik və "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileylərinin YUNESCO səviyyəsində keçirilməsi Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edərək beynəlxalq mədəni ictimaiyyətlə yeni əməkdaşlıq formalarının bərqərar olmasına gətirib çıxarmışdır. Heydər Əliyev Böyük İpək Yolunun mühüm mərkəzi olan, mədəniyyətlərin və sivilizasiyaların qovşağında yerləşən ölkəmizi dünyada tolerantlığın və dözümlülüyün məkanı kimi tanıtmışdır. Onun beynəlxalq səfərləri, siyasi, ictimai və dini xadimlərlə görüşləri ölkəmizin yeni imicinin formalaşmasına xidmət edirdi. Milli mənəvi dəyərlərimizin qorunub saxlanılması, azərbaycançılıq ideologiyasının şüurlarda kök salması, dilimizin tətbiqi sahələrinin genişlənməsi, tariximizin yenidən obyektivcəsinə yazılması və s. Heydər Əliyevin çoxşaxəli fəaliyyətinin yalnız bir tərəfidir. Yaxın tariximizin son bir qərinəlik dövrünə nəzər saldıqda görürük ki, Azərbaycanın bütün sahələrində qazandığı uğurlar, onun günbəgün artan nüfuzu, sözün əsl mənasında,

böyük insan olan Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır. Cənab Heydər Əliyevin xüsusilə təhsilə, elmə, mədəniyyətə olan qayğısı, məktəbə, müəllimə verdiyi yüksək qiymət siyasi xadim, dövlət rəhbəri kimi daim onun fəaliyyətinin ana xəttini təşkil edib. Bu gün dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikasını öz vətəni sayması, onu milli ruhun, milli-mənəvi dəyərlərin, milli mədəniyyətin məbədi kimi qəbul etməsi və azərbaycançılıq ideyası ətrafında birləşməsi məhz Heydər Əliyev fəaliyyətinin nəticəsidir. Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir. Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Onun siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz qabağındadır. Bu uğurlar paytaxtımızın daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə, eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır. Müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafı yolunda əvəzsiz tarixi xidmətlərini nəzərə alaraq, milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması naminə misilsiz töhfələr vermiş Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev

xalqımızın qəlbində əbədiyaşarlıq qazanmışdır. Milyonların ürəyindən gələn bu sözlər ona ümumxalq məhəbbətinin ifadəsi oldu: “Nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var Heydər Əliyev ürəklərdə yaşayacaqdır”.

**Keçiriləcək tədbirlər**

Azərbaycanın milli-mənəvi dünyasını zənginləşdirmiş şəxsiyyətlər möhkəm əqidələri, dərin zəkaları ilə tariximizdə parlaq səhifələr yazmışlar. Bu şəxsiyyətlər doğma yurdun sabahı naminə zamanın sınaqlarına fədakarlıqla sinə gərərək vətənin işıqlı gələcəyini təmin etmişlər. Ümummilli liderimiz, türk dünyasının fəxri Heydər Əliyev belə şəxsiyyətlər sırasında önəmli yer tutur. Xalqımızın ümummilli liderinin “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam” sözləri dünya azərbaycanlılarının şüarı olmaqla, soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilmişdir. Xalqımız onun bütün mənalı ömrünü xalqının xoşbəxt gələcəyi üçün sərf etmiş, canı qədər sevdiyi Azərbaycanın çiçəklənməsi üçün çalışmış əfsanəvi insanın adı ilə bağlı əziz günü ürəkdən qeyd edir. Bu münasibətlə respublikanın bütün mədəniyyət müəssisələrində, eyni zamanda kitabxanalarda yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Kitabxanalarda bununla əlaqədar maraqlı tədbirlər keçirmək olar. Tədbiri keçirmək üçün kitabxana məktəblərlə, ali təhsil ocaqları ilə əməkdaşlıq etməlidir. Bu tədbirlər arasında sərgilər mühüm yer tutur. Sərgidə Heydər Əliyev haqqında kitablar və müxtəlif mətbuat səhifələrində nəşr olunmuş məqalələr, onun fotoları nümayiş olunur.

# Kitab sərgisi





































HEYDƏR ƏLİYEV
Viktor Andriyanov
Hüseynbala Mirələmov
GÖRKƏMLİ ADAMLARIN HƏYATI


Heydər Əliyevin kəlamları


HEYDƏR ƏLİYEV
MƏDƏNİ IRSİMİZİN KEŞİYİNDƏ


TÜRK DÜNYASININ
BİRLİYİ İDEYASI VƏ
HEYDƏR ƏLİYEV


HEYDƏR ƏLİYEV
VƏ AZƏRBAYCAN
NİTQ MƏDƏNİYYƏTİ


HEYDƏR
ƏLİYEV
və MƏDƏNİ İRS


ÖMRÜMÜ
XALQIMA
BAĞIŞLAYIRAM
ЖИЗНЬ СВОЮ ДАРЮ НАРОДУ
I DEVOTE MY LIFE TO MY PEOPLE


ƏDƏBİYYATDA
HEYDƏR ƏLİYEV OBRAZI
TARİXİ GERÇƏKLİKDƏN
II KİTAB İDEALA









Sərgiyə kitablarla yanaşı ulu öndər haqqında dövri mətbuatda çap olunan məqalələrin kartotekasını, onun haqqında çəkilmiş sənədli və bədii filmlərin video-yazılarını, kaset və disklərini də əlavə etmək olar

Təşkil edilmiş yubiley sərgisinin qarşısında silsilə tədbirlər – söhbətlər, biblioqrafik icmallar keçirmək planlaşdırılmalıdır.

Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər:

***"Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur", "Heydər Əliyev böyük siyasət və dövlət xadimidir", "Heydər Əliyev türk dünyasının böyük oğludur", "Heydər Əliyev Mədəniyyətimizin böyük hamisi kimi", "Heydər Əliyevin adı Azərbaycanın şərəf və ləyaqət ucalığının rəmzidir", "Azərbaycanın özü qədər əbədi olan şəxsiyyəti", "Türk dünyasının fenomen lideri", "Əbədi müstəqilllik tarixi yazan lider", "Sən elə bir zirvəsən...", "Milli-mənəvi dəyərlərimizin qoruyucusu", "Xalq Heydər söyləyəcək", "Milli mədəniyyətimizin himayədarı"*** və s.

**Görkəmli şəxsiyyətlərin ulu öndər Heydər Əliyev haqqında söylədikləri kəlamlar:**

Azərbaycan mədəniyyətinin və zəngin tarixi irsimizin dünya ictimaiyyətinə tanıdılması Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Xalqımızın ümummilli liderinin “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam” sözləri dünya azərbaycanlılarının şüarı olmaqla, soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilmişdir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının prezidenti*

Azərbaycan üçün Heydər Əliyevin varlığı yalnız Tanrı payıdır.

**Mehriban Əliyeva,**
*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti*

Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan və sevilən lideri idi. Türkiyə - Azərbaycan dostluğunu çox gözəl ifadə edən “Bir millət, iki dövlət” ifadəsi də ona məxsusdur. Mərhum Heydər Əliyev Azərbaycanın xoşbəxtliyi və firavanlığı, bölgədə və dünyada sülh naminə göstərdiyi fövqəladə xidmətlərlə türk və dünya tarixində şərəfli yer tutmuşdur.

**Rəcəb Tayyib Ərdoğan,**
*Türkiyə Respublikasının prezidenti*

Azərbaycanın bugünkü nailiyyətlərində Heydər Əliyevin səriştəli və müdrik rəhbərliyi şəksizdir.

**Süleyman Dəmirəl,**
*Türk dünyasının ictimai-siyasi xadimi*

Heydər Əliyev bütün dünyanın etiraf etdiyi görkəmli lideridir.

**Federiko Mayor,**
*siyasətçi*

Heydər Əliyevin müstəqillik əzmi, demokratik əzmi, demokratik mövqe tutması bütün dünya ilə əlaqələr yaratması üçün layiqli körpü rolunu oynamışdır.

**Oskar Lui Skalfaro,**
*İtaliyanın dövlət xadimi*

Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilmişdir.

**Akixito,**
*Yaponiyanın imperatoru*

Heydər Əliyevin qətiyyətli iştirakı və şəxsi əməyi olmasaydı, Azərbaycanın nailiyyətləri də mümkün olmazdı.

**Emoməli Rəhmanov,**
*Tacikistanın prezidenti*

Bu gün Azərbaycanın nümayiş etdirdiyi uğurlar, qazandığı nailiyyətlər daha əhəmiyyətli və daha sanballıdır. Bütün bunlar Azərbaycan xalqının tanınmış lideri Heydər Əliyevin çox böyük şəxsi töhfəsinin və şəxsi şücaətinin nəticəsidir.

**Saparmurad Niyazov,**
*Türkmənistanın eks-prezidenti*

Uzaqgörən və istedadlı idarəçiliyi sayəsində Azərbaycanın hər sahədə inkişaf etməsini və bugünkü nüfuzlu mövqeyə çatmasını təmin edən Heydər Əliyevi şəxsən tanıdığıma görə böyük şərəf və xoşbəxtlik hissləri keçirirəm. Azərbaycanın əmin-amanlığı və çiçəklənməsi üçün göstərdiyi səylərlə yanaşı, Heydər Əliyev bütün Qafqaz bölgəsinin sülhün bərqərar olduğu bir məkana çevrilməsi istiqamətindəki fəaliyyəti ilə də daim xatırlanacaqdır.

**Əhməd Necdət Sezər,**
*Türkiyə Respublikasının 10-cu prezidenti*

Uzun illər ərzində Heydər Əlirza oğlu Əliyevin səmərəli fəaliyyəti xalqlarımızın ümumi tarixi ilə bilavasitə bağlı olmuşdur. O, Rusiya və Azərbaycanın strateji tərəfdaşlığının təməlini qoymuş, dostluğumuzun və qarşılıqlı anlaşmamızın möhkəmlənməsinə böyük şəxsi töhfə vermişdir.

**Vladimir Putin,**
*Rusiya Federasiyasının prezidenti*

Azərbaycanın müstəqilliyinin təşəkkülündə və möhkəmlənməsində, beynəlxalq aləmdə nüfuzunun yüksəlməsində, ölkələrimiz və xalqlarımız arasında ikitərəfli münasibətlərin inkişafında və genişlənməsində Heydər Əliyevin tarixi rolu misilsizdir.

**İslam Kərimov,**
*Özbəkistan Respublikasının 1-ci prezidenti*

Moldova Respublikasında Heydər Əliyevi həmişə böyük vətənpərvər kimi, ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi uğrunda, Avropada və bütün dünyada demokratiya idealları uğrunda, sabitliyin və təhlükəsizliyin qorunub saxlanması uğrunda mübariz kimi tanımış və qiymətləndirmişlər.

**Vladimir Voronin,**
*Moldova Respublikasının 3-cü prezidenti*

Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər. Onun Prezident kimi fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərdə tərəqqi yarandı və Azərbaycan Avropa ilə əlaqələrini daha da yaxınlaşdırdı.

**Toni Bleyer,**
*Böyük Britaniyanın 73-cü Baş naziri*

Heydər Əlirza oğlu böyük siyasətçi, dahi dövlət rəhbəri və vətənpərvər, gözəl, istedadlı insan kimi məşhur idi. Sovet dövlətinin, sonralar MDB-nin və Azərbaycan Respublikasının tarixinin bir çox parlaq və əhəmiyyətli səhifələri onun adı ilə bağlıdır.

**Murtaza Rəhimov,**
*Başqırdıstan Respublikasının 1-ci prezidenti*

Heydər Əlirza oğlu özünün bütün istedad və müdrikliyini, Vətənə məhəbbətini, əməksevərliyini və fədakarlığını Azərbaycanın tərəqqisi işinə həsr etmişdir.

**Əsgər Akayev,**
*Qırğızıstan Respublikasının eks-prezidenti*

Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və Azərbaycanın iyirmi birinci əsrə müasir dövlət kimi daxil olmasına imkan yaratmışdır.

**Corc Buş,**

*Amerika Birləşmiş Ştatlarının 43-cü prezidenti*

Heydər Əliyev dünyaya qalib gəldi, qalib getdi! Onun həyatının başlanğıcından sonuna qədər hansı səhifəsini vərəqləsən, burada qələbənin məğrur təbəssümünü görərsən...

**Anar,**

*Xalq yazıçısı*

Heydər Əliyev XX əsrin görkəmli liderlərindən biri kimi müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularındandır.

**Çingiz Aytmatov,**

*Qırğızıstanın Xalq yazıçısı*

Heydər Əliyev mədəniyyət və ədəbiyyata böyük hörmət bəsləyir. Bu, onun müdrüklüyünə dəlalətdir.

**İvan Draç,**

*Ukrayna şairi*

**Viktorina** – Orta yaş qrup oxucular arasında ümummilli lider Heydər Əliyevin yubileyi münasibətilə *sual-cavab gecələri, testlər və ya ədəbi viktorinalar* təşkil oluna bilər. Sual-cavab gecəsi kitabxanaçı tərəfindən təşkil olunur və oxuculara suallar təqdim olunur. Viktorina keçirilərkən, kitabxanaçı məktəbli oxucuları ətrafıına toplayıb ulu öndərin malik olduğu xüsusiyyətləri onlardan soruşur. Bu zaman kitabxanaçı ilə oxucular arasında maraqlı dialoq yaranır.
Məsələn: Əziz uşaqlar, sizin fikrinizcə Heydər Əliyev kimdir? Cavablar: Heydər Əliyev böyük azərbaycanlı idi. Bu kəlmələr bunun sübutudur. "Mən fəxr edirəm ki, azərbaycanlıyam". Heydər Əliyev böyük dövlət xadimi idi. "Azərbaycanın dövlət müstəqilliyi bizim üçün ən əziz, ən qiymətli nailiyyətdir". Heydər Əliyev əsl vətənpərvər idi. "Bizim hamımızın bir Vətəni var – bu Azərbaycan dövlətidir". Heydər Əliyev ana dilimizlə fəxr edirdi. "Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz dilimizlə, Azərbaycan dili ilə fəxr edirik". Heydər Əliyev qüdrətli sərkərdə idi. "Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün hər bir döyüşə, hər bir vuruşa hazır olmalıyıq". Heydər Əliyev təhsilimizin himayədarı idi. "Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyət həyatının, fəaliyyətinin mühüm bir sahəsidir". Heydər Əliyev tariximizin yaradıcısı idi. "Gərək biz tariximizi heç vaxt unutmayaq, onun hər bir səhifəsinə hörmətlə, ehtiramla yanaşaq". Heydər Əliyev böyük müəllim idi. "Azərbaycanın müəllimləri ən yüksək mənəviyyata, vətəndaşlıq hisslərinə malik olan insanlardır". Heydər Əliyev uşaqları çox sevirdi. "Uşaqlar bizim gələcəyimizdir".
Viktorina yekunlaşdıqda ən fəal oxucu kitabxananın müdiriyyəti tərəfindən qiymətləndirilir. Ulu öndər Heydər Əliyevin yubileyi ilə əlaqədar kitabxananın azyaşlı oxucuları arasında *"Heydər Əliyev və müstəqil Azərbaycan"* mövzusunda ***şeir müsabiqəsi*** keçirmək olar. Keçirilən müsabiqələrdə qaliblər xüsusi

hədiyyələrlə mükafatlanır. Bu mövzuda yazılmış şeirlərdən bir neçəsini sizə təqdim edirik.

**Heydər elə, el Heydərə söykənib**

Ana torpaq, ana vətən yenilməz,
Yenilməyən bir nəfərə söykənib.
Nəğməkarlar sülh nəğməsi düşünür,
İnsan oğlu xoş xəbərə söykənib.
Daha dövlət saxsıdanmı, sökələr?
Sahibsizmi, kərpicini çəkələr?
Ölkəmizi arxa bilir ölkələr,
Azərbaycan ölkələrə söykənib.
Gəlib çıxar ağır yolun hamarı,
Köçüb gedər Qarabağın qübarı!
Heydər isə bu dövlətin memarı,
Bayrağı ər oğlu ərə söykənib.
Odur gücü əhdin, eşqin, vüqarın,
Dedi: “Gərək eli dardan qurtarım”.
Qartal süzür arasında dağların,
Qanadları zirvələrə söykənib.
Millət deyim, söz eşqimi tərpətdi,
Heydər deyim, hər kəlməsi sərvətdi.
Millət – Heydər hər ikisi qüdrətdi,
İki qüdrət bər məhvərə söykənib.
Şair Məstan həqiqətdir, xəyal yox,
Yazdığına nida qoyar, sual yox.
Biri varsa, o birinə zəval yox,
Heydər elə, el Heydərə söykənib.

## Vətən oğlu *Məstan Günər*

Vətən oğlu, ata oldun bizə sən,
Ata kimi qayğımızı çəkirdin.
Şair kimi həssas idin sözə sən,
Danışıqda sözdən sözü çəkirdin.
Ölkə olduq sən arzuna çatanda,
Bir əlin od, bir əlin su olurdu.
Millət rahat xumarlanıb yatanda,
Yuxun bir an quş yuxusu olurdu.
Yurdumuzda şan-şöhrətli hər nə var
Yatmadığın günlər, aylar, illərdi;
Ziyarətə gəlir səni bu yollar...
Göz yaşımız məzarında güllərdi.
Sənin rəmzin Azərbaycan bayrağı,
Baş qoymağa, can verməyə hazırıq.
Dan ulduzum-yurdumuzun mayakı.
Şeir də bir təsəllidir, yazırıq.
Adın-sanın yenilməz bir ordudu,
İndi odlar diyarının özüsən...
Azərbaycan Heydərlərin yurdudu,
Gələcəyə baxanların gözüsən

## Xalqın öndəri *Fikrət Qoca*

Xalqın tükənmişdi səbri-dözümü,
O, yetirdi ağır gündə özünü,
Sülh carçısı dedi haqqın sözünü
Heydər kimi öndəri var xalqımın.
Tanıtdı dünyaya, Azərbaycanı,
Torpaqdır, Vətəndir onun imanı,
Dağıtdı yurdumdan qara dumanı
Heydər kimi öndəri var xalqımın.
Doğdu Günəş kimi göylərdən baxdı,
Nur olub yurduma şəfəqlər saçdı.

Tilsimli yollardan düyünü açdı,
Heydər kimi öndəri var xalqımın.

**Şəfəq saçır yenə Heydər** *Şəlalə Çingizqızı*

Vətən eşqi gecə-gündüz ürəyində alovlanan,
Xalqı üçün yorulmadan zəhmət çəkən hey yaradan.
Həyatının mənasını bəxş eyləyən bu xalqına,
Əməliylə yol açan Vətənin baharına.
Gələcəyə işıq saçan, nur bəxş edən günəş kimi,
Düşmənləri yandıran bir alov kimi, atəş kimi,
Prezidentim bu xalqına bir qürurdur, bir inamdır.
Ölkəmizi bəlalardan hifz eyləyən qəhrəmandır!
Onun sonsuz məhəbbəti ürəklərdə tutub qərar.
Abadlaşır gündən-günə Vətənimdə hər bir diyar!
Xalqa birdir rəhbərimin əqidəsi, vuran qəlbi,
O, xalqının böyük oğlu, qüdrətli gənc Heydər idi.
Gənc Heydərdir yeni əsrə addımlayır daha mətin,
Qapısını açır xalqa, xoşbəxtliyin səadətin!
İnam ilə xalqımızın inamına verir təpər.
Bu Vətəndə gündüz günəş, gecə nurlu aydır Heydər!

**Heydər baba, oldun millət atası** *Vaqif Kəhrizli*

Vətənin çox ağır gün-saatında,
Yarandı Vətəni bölmək xətası.
Tanrım pay göndərdi Heydər adında,
Heydər baba, oldun millət atası.
Tökülən qanları dayandıraraq,
Yatmış vicdanları oyandıraraq,
Dar gündə xalqına hayan duraraq,
Heydər baba, oldun millət atası.
Ölkəmiz əbədi müstəqil deyə,
Üç rəngli bayrağı ucaltdın göyə,
Durdun xalqa yiyə, xalq sənə yiyə,
Heydər baba, oldun millət atası.

Zəkanla susdurdun ölüm silahın,
Qoydun təməlini parlaq sabahın,
Hifz etdi qəsdlərdən səni Allahın,
Heydər baba, oldun millət atası.
Məşələ döndərdin od nəfəsini,
Dünyaya çatdırdın xalqın səsini,
Dincliyə çağırıb Yer kürəsini,
Heydər baba, oldun millət atası.
Keçmişi, bu günü, sabahı gördün,
Ömrünü Vətənə, xalqına verdin,
Köçdün, ürəyində Qarabağ dərdin,
Heydər baba, oldun millət atası.
Vətəni bilərək könlünün quşu,
Döndərdin bahara tufanlı qışı,
Şərəflə yaşadın hər ötən yaşı,
**Heydər baba, oldun millət atası** *Oqtay Zəngilanlı*
Qorxmadan çapdın qeyrət atını,
Şəhidtək qeyb etdin öz həyatını,
Tarixə döndərib ölməz adını,
Heydər baba, oldun millət atası.
İdrakın yol açdı Bakı-Ceyhana,
Tanıtdın Vətəni, xalqı cahana,
Ömrünü pay verib Azərbaycana,
Heydər baba, oldun millət atası.
Vətəni tutaraq canından baha,
İlhamla yol açdın nurlu sabaha,
Ruhunla qovuşdun haqqa, Allaha,
Heydər baba, oldun millət atası.

Həmçinin məktəbli oxucularımız arasında kitabxanada ulu öndərdən bəhs edən ***rəsm müsabiqələri*** də təşkil etmək olar. Müsabiqə zamanı şəkilərin hazırlanması üçün uşaqlara iki həftə vaxt verilir. Bu vaxt ərzində oxucular ulu öndər Heydər

Əliyevdən bəhs edən kitablarla, qəzetlərlə, jurnallarla tanış olurlar. Bu müddət ərzində kitabxanaçılar uşaqlara yaxından kömək edirlər. Ən gözəl məna kəsb edən rəsm işləri mükafatlandırılır. Həmçinin rəsm müsabiqələri üçün məktəblərarası yarışmalar da təşkil etmək olar. Rəsm müsabiqələri ilə yanaşı başqa müsabiqələrin də təşkili mümkündür. Məsələn, ***mahnı müsabiqəsi***

Uşaqların ifasında Heydər Əliyevdən bəhs edən mahnılar məktəbli oxucular tərəfindən ifa olunur. Bu vaxt münsiflər heyəti yaradılır. Münsiflər heyəti kitabxana rəhbərindən, teatrımızın görkəmli nümayəndələrindən, bəstəkarlardan təşkil edilə bilər. Bu gün Azərbaycanın üçrəngli bayrağı BMT-də, Avropa Şurasında, başqa mötəbər beynəlxalq təşkilatlarda vüqarla dalğalanır. Danılmaz bir həqiqətdir ki, Heydər Əliyevin həyat prinsipi həmişə ədalət, sülh, əmin-amanlıq və xalqın rifahı, dövlətin qüdrətinin və təhlükəsizliyinin möhkəmləndirilməsi olmuşdur. Heydər Əliyev ötən əsrin görkəmli siyasətçisi və dövlət xadimi kimi bütün dünyada tanınmış və artıq öz sağlığında tarixə düşmüş böyük şəxsiyyətdir. Azərbaycan tarixi inkişafının son illərində yaşadığı hadisələr, Heydər Əliyev varlığının, onun zəkasının, nüfuzunun və dərin təcrübəsinin dövrümüz üçün nə qədər əhəmiyyətli olduğunu əyani şəkildə göstərmişdir. Dahi şəxsiyyətin bu müdrik xüsusiyyətlərini oxuculara tanıtdırmaq məqsədilə ümummilli lider Heydər Əliyevdən bəhs edən ***ədəbiyyatların icmalı***nı keçirmək, bu tarixi şəxsiyyətin yaradıcılığından bəhs edən diskussiyalar da təşkil etmək olar. İcmal və diskussiyaların məktəblərdə yuxarı sinif şagirdləri arasında keçirilməsi məsləhətdir. Diskussiyalar keçirilərkən, Heydər Əliyev haqqında yazılmış şeirlərdən, poemalardan, pyeslərdən söhbət açılır və bu haqda oxucuların fikirləri öyrənilir. Heydər Əliyev və uşaqlar Kitabxanada Ulu öndər Heydər Əliyevin yubileyi ilə

əlaqədar kitabxanaçı oxucularla “Heydər Əliyev və uşaqlar” başlığı altında ***söhbət*** keçirə bilər. Bunun üçün bu mövzuda sərgi təşkil edilir, slayd hazırlanır. Sonra isə kitabxanaçı bu mövzuda maraqlı faktlarla uşaqları tanış edir.

**Kitabxanaçı:** Dövlətimiz, uşaqların şən, qayğısız böyüməsi üçün həmişə müxtəlif tədbirlər həyata keçirir. Ulu öndərimiz Heydər Əliyev uşaqları çox sevirdi. Onların sağlam, xoşbəxt böyüməsi, düzgün tərbiyə olunması naminə əvəzsiz xidmətlər göstərmişdir. Kinolentlərin yaddaşında yaşayan bəzi məqamlara diqqət yetirəndə şahidi olursan ki, unudulmaz rəhbər Heydər Əliyev uşaqların əhatəsində necə şən və bəxtəvər görünürdü. Ulu öndərin uşaqlarla səmimi ünsiyyəti, onlara diqqət və qayğı göstərməsi bu gün hər kəs üçün bir örnəkdir. Ümummilli liderimiz həmişə bir məsələyə xüsusi diqqət verirdi ki, istedadlı uşaqların peşə seçimi düzgün istiqamətlənsin. Onlar Azərbaycanın gələcəyi üçün əsl vətəndaş, ləyaqətli övladlar kimi yetişərək vətənə xidmət etsinlər, onun şöhrətini dünyaya yaysınlar. Ulu öndər Heydər Əliyevin sərəncamı əsasında 1996-cı ildə yaradılmış "Qızıl kitab"a onlarla istedadlı uşağın adı düşmüşdür. İndi həmin gənclər Azərbaycan mədəniyyətinin müxtəlif sahələrində öz uğurlu addımlarını atmaqdadırlar. Ölkə başçısı cənab İlham Əliyev də bu estafeti uğurla davam etdirərək uşaqlara qayğı və diqqət yetirir. Möhtərəm Prezidentin 17 aprel 2006-cı ildə "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)"nı təsdiq etməsi bu qayğı və diqqətin bariz nümunəsidir. Bu proqramın uğurla həyata keçməsində bir sıra nazirliklərin üzərinə mühüm vəzifələr qoyulmuşdur. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da uşaqlara göstərdiyi məhəbbət hamıya bəllidir. Ölkəmizin birinci xanımının təşəbbüsü ilə respublikamızın ucqar güşələrində yeni məktəb binaları tikilmiş,

uşaq evləri xüsusi qayğı ilə əhatə olunmuşdur. İstedadlı uşaqların iştirakı ilə müxtəlif müsabiqələr, festivallar həyata keçirilməkdədir. Bu gün Azərbaycanda dünyaya gələn hər bir körpənin qayğısını yalnız valideynlər deyil, həm də dövlətimiz çəkir. Məqsəd birdir: gələcəyimiz olan körpələr şən və firavan böyüsünlər, düzgün tərbiyə olunsunlar. Buna nail olmaq üçün yeni yaradılmış Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin də üzərinə bir sıra vəzifələr düşür. Viktor Hüqonun təbirincə desək, "dünyada ən böyük himn körpə qığıltısıdır". Ürəkdən arzu edirik ki, dünyamız bu qığıltıdan əskik olmasın. Bir çox dövlətlərdə uzun illər uşaqlardan şəxsi məqsədlər üçün müharibə və münaqişələrdə istifadə olunur, narkotika alverinə cəlb edilir, onlar ucuz işçi qüvvəsi kimi istifadə olunur. BMT "Uşaq hüquqları haqqında" Konvensiyanı 20 noyabr 1989-cu ildə qəbul etdi. Hazırda 189 dövlət həmin konvensiyaya qoşulub. Azərbaycan parlamenti isə "Uşaq hüquqları haqqında" Konvensiyanı 1992-ci ildə ratifikasiya edib. Konvensiyaya uşaqların münaqişələrdə iştirakına imkan verməmək, onların hüquqlarını müdafiə etmək barədə maddə daxil edilib. Ermənistanla müharibə şəraitində olan Azərbaycan üçün bu sənəd mühüm əhəmiyyətə malikdir. Çünki müharibə zamanı yüzlərlə uşağımız itkin və girov düşüb. "Konvensiyaya qoşulmaqla beynəlxalq aləmdə bu məsələ ön plana çəkildi və nəticədə girov düşmüş uşaqların hamısı azad edildi. 61 nəfər itkin uşağın taleyi isə hələ də bəlli deyil. İki ölkə arasında davam edən münaqişədə xeyli maddi və mənəvi ziyan çəkən on minlərlə uşaq isə qaçqın və məcburi köçkün statusu ilə çadır düşərgələrində, yataqxanalarda məskunlaşıb. Bununla bağlı araşdırmalar göstərir ki, təhsildən yayınaraq küçəyə düşən, ölən uşaqların əksəriyyəti məhz həmin ailələrdən çıxır. Hazırda ölkəmizdə 3 milyon yarım uşaq yaşayır. Onların 10 faizini qaçqın və məcburi köçkün uşaqlar təşkil edir. "Küçə uşaqları"

problemi bütün dünya üçün aktual məsələdir. Bir çox inkişaf etmiş ölkələrdə onların hüquq və azadlıqları qorunur. Son vaxtlar Azərbaycanda da həmin uşaqların müdafiə olunması və onlara qayğı göstərilməsi geniş vüsət alıb. Bu sahədə Azərbaycan Respublikasının birinci vitse prezidenti Mehriban xanım Əliyevanın böyük xidmətləri var. Qeyd edək ki, uşaq hüquqlarının müdafiəsi ilə bağlı ölkəmizdə qanunvericilik bazası formalaşıb. "Uşaq hüquqları haqqında" qanun və bəzi digər hüquqi normativ aktlar qəbul edilib. Bu sahədə əsas normativ sənəd 1998-ci il mayın 19-da qəbul edilmiş "Uşaq Hüquqları haqqında" qanundur. Bu qanun uşaqların beynəlxalq səviyyədə təsbit olunmuş əsas hüquq və 32 azadlıqlarını, eləcə də bu hüquqların reallaşdırılması üçün dövlətin vəzifələrini özündə əks etdirir. Məktəbəqədər təhsil müəssisələrində də ümummilli lider Heydər Əlirza oğlu Əliyevin yubileyi münasibətilə bir sıra tədbirlər keçirmək olar. Bu tədbirlərdə Heydər Əliyevin fəaliyyətindən və uşaqları çox sevdiyini vurğulayan plakatlardan istifadə etmək lazımdır. Tədbirdə kitabxanaçı Ulu öndərin fəaliyyətindən, vətənini, xalqını, torpağını ürəkdən sevməsindən, onun naminə gecə-cündüz yorulmadan çalışmasından, xeyirxahlığından, humanistliyindən ürəkdolusu iftixarla çıxış edir. Sonra balacalar tərbiyəçilərin onlara öyrətdikləri şeir və mahnıları ifa etməklə gələcəkdə Heydər baba kimi mərd, mübariz olmağa and içirlər. Vətənin gələcəyi, onun keşikçisi, həyatın davamçıları olan balacaların düzgün tərbiyə edilməsi müdrik insan Heydər Əliyevi düşündürən əsas məsələlərdən biri olduğunu qeyd edən kitabxanaçı dahi şəxsiyyəti dünyamızın görən gözü, düşünən beyni adlandırmaqla, bu dahi insanın xeyirxah əməllərinin bizimlə daim yaşadacaqlarına inandıqlarını bildirir. Balacalar rəngarəng proqramlarla çıxışlar etməklə yanaşı, ulu öndərin həyatını əks etdirən *videokasetlər*ə də baxa bilərlər.

**İcmal** – Orta və yuxarı sinif şagirdləri ilə Ulu öndər Heydər Əliyevə həsr olunmuş kitabların icmalını keçirmək olar. Bu gün müstəqil Azərbaycan Respublikasında digər sahələrdə olduğu kimi, kitab nəşri də öz inkişaf yoluna qədəm qoymuşdur. Hazırda xalq tərəfindən sevilən siyasi xadimlər haqqında yazılaraq dərc edilən kitablar geniş oxucu auditoriyası tərəfindən maraqla qarşılanır, əldən ələ gəzərək oxunur. İcmalı keçiriləcək belə kitablardan biri "Nurlan" nəşriyyatı tərəfindən çap edilmiş *"Zəmanəmizin ən böyük Azərbaycanlısı"* toplusudur. İcmalı belə başlamaq olar: Kitabı Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru N.Əliyeva və kollecin tədris hissə müdiri, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun dissertantı G.Əliyeva tərtib etmişdir. Yüksək 33 zövqlə, nəfis şəkildə çap edilmiş bu toplunun ilk səhifəsində ümummilli liderimiz Heydər Əliyevin insan və insanlıq üçün, xüsusilə gənclərimizə aid iki tarixi tövsiyəsi verilmişdir. Həmin tövsiyələri sizə çatdırmağı özümüzə borc bilirik: "Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək, başqaları üçün nümunə olmaqdır". "Cəmiyyətimizin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır". Bundan başqa Zeynal Vəfanın *"Millətin xilaskarı"*, Namiq Abbasovun redaktəsi altında çapa hazırlanmış *"Xalqa, Vətənə, dövlətə sədaqət"* adlı foto-kitab, Hüseynbala Mirələmovun *"Amalın İşığında",* "Heydər Əliyev mədəni irsimizin keşiyində", Ramiz Mehdiyevin ideya müəllifi olduğu *"Dünyanı heyran qoyan insan"*, Ramiz Mirzəyevin *"Əsrin müqaviləsindən başlanan yol*" adlı kitablarının da icmalını keçirmək Heydər Əliyev irsinin təbliğində məqsədəuyğundur. Ulu öndərimiz haqqında yazılmış kitabların icmalının tələbələr,

məktəbli oxucular, ümumiyyətlə, geniş oxucu auditoriyası tərəfindən rəğbətlə qarşılanacağına əminik.

**Kitab müzakirəsi** – Heydər Əliyev haqqında çox kitablar yazılıb. Ən uğurlusu H.Mirələmova nəsib olub. Bu məqsədlə də Hüseynbala Mirələmovla oxucuların görüşünü və kitab müzakirəsi keçirmək olar. H.Mirələmovun "Dünyanın görkəmli şəxsiyyətləri" seriyası altında çap olunan kitabının müzakirəsində oxucuların diqqətinə çatdırılır ki, yazıçı publisist H.Mirələmov H.Əliyevin 80 illik ömrünü olduğu kimi əks etdirir. Dahilərdən biri deyib ki, ömrün müddəti deyil, bu ömrün necə yaşanması əhəmiyyətlidir. Hüseynbala Mirələmovun publisistik yaradıcılığında başlıca mövzu ümummilli liderimizin siyasi fəaliyyəti ilə bağlıdır. O, bu mövzuda xeyli sayda məqalə, oçerk, esse yazmış, "Zəfər yolu" (2003), "Həqiqət" (2003), "Millətin atası" (2004), "İşığın izi ilə" (2004), "Bir günəş var" (2004), "Heydər Əliyev" (2005, Moskva, rus dilində, V.Andriyanovla birgə) kimi kitablar çap etdirmişdir. Bu kitablar müstəqilliyimizin, yenidən dirçəldilməkdə olan dövlətçilik ənənələrimizin isti-isti yazılan tarixi, canlı və həmişə yaşayan sənədləridir. Tarixi şəxsiyyətlər haqqında dərc edilən belə kitablar gələcək nəsil üçün tarixi yaddaş baxımından təqdirəlayiqdir. İnşa müsabiqəsi − Yuxarı sinif şagirdləri ilə "Heydər Əliyev və Azərbaycan" başlığı altında ***inşa müsabiqəsi*** keçirmək olar. Keçirilən tədbirdən sonra uşaq qəzet və jurnallarında, kitabxananın saytında müsabiqə qalibləri haqqında məlumatlar, tədbirin şəkilləri verilsə oxucuların daha çox marağına səbəb olar.

**Konfrans** − Kitabxanalarda yuxarı sinif şagirdlərinin iştirakı ilə "Heydər Əliyevin fəaliyyəti müasir gəncliyin gözü ilə" oxucu konfransı da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək

qonaqların, tarixçilərin, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı Heydər Əliyevin fəaliyyətinə, yaradıcılığına yaxından bələd olan millət vəkilləri, Mədəniyyət Nazirliyinin nümayəndələri, jurnalist, yazıçı və şairlərin çıxışları dinlənilir. Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (Heydər Əliyevin həyat və yaradıcılığı haqqında məruzə);
2.Heydər Əliyevin yaradıcılığı haqqında kitabxana rəhbərliyinin, millət vəkillərinin, siyasətçilərin, yazıçı və şairlərin çıxışları;
3.Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların Heydər Əliyevin fəaliyyətindən bəhs edən müzakirələri;
4. Ədəbi bədii kompazisiya;
5. Konfransın yekunu.

Yubiley ərəfəsində keçirilən tədbirlər məktəblərlə birgə iş planı əsasında olsa daha uğurlu alınar. “Heydər parkı” ətrafında olan məktəblərlə birlikdə hazırlanmış **ədəbi-bədii kompozisiya**nın açıq havada keçirilməsi daha məqsədəuyğundur. Həmin rayon rəhbərliyi İcra hakimiyyəti nümayəndələri də bu tədbirə dəvət oluna bilərlər. Belə tədbirlərdən maraqlısı da “Gül bayramı” müsabiqəsidir. Kitabxana və məktəbin birgə hazırladığı tədbirdə elan olunmuş müsabiqəyə qatılan məktəblilər ümummilli liderə həsr olunmuş kompozisiyada çıxış edirlər. Yekunda daha çox fərqlənən məktəblərə rayon icra hakimiyyəti başçısının xüsusi mükafatı təqdim olunur. “Gül bayramı” müsabiqəsində məktəblilər, eyni zamanda, müxtəlif nominasiyalarda bacarıqlarını da nümayiş etdirə bilərlər. Ədəbi-bədii gecə − Heydər Əliyevin irsinin təbliği üçün ***Xatirə gecələri***nin keçirilməsi zəruridir. Gecəni *“Azərbaycanın özü qədər əbədi olan şəxsiyyəti Heydər Əliyev”* başlığı ilə adlandırmaq olar.

Tədbirin ssenarisini sizə təqdim edirik. Səhnə ümummilli lider Heydər Əliyevin portreti, fəaliyyətini əks etdirən şəkillərlə, bir çox şair və yazıçıların onun haqqında yazdığı əsərlərlə, Heydər Əliyevin hikmətli kəlamları ilə bəzədilir. Gecəyə Heydər Əliyevin yaradıcılığına yaxından bələd olan tanınmış millət vəkilləri, yazıçılar, şairlər, siyasətçilər, jurnalistlər, tarixçilər, müəllimlər və s. dəvət olunur. Tədbir Azərbaycan himninin səslənməsi ilə başlayır. Sonra isə tədbir iştirakçılarına Heydər Əliyevdən bəhs edən slayd təqdim olunur. Daha sonra kitabxanaçı tədbiri açıq elan edir. İki nəfər aparıcı səhnəyə çıxıb tədbir iştirakçılarını salamlayırlar.

**I aparıcı:** Azərbaycan! Sən əsrlər boyu tarixdə ad-san qazanmış şəxsiyyətləri – Tomrisi, Cavanşiri, Babəki, Şah İsmayıl Xətaini və başqalarını yetişdirmisən. Sən belə tarixi simalardan yenə də yetirməliydin. Və yetirdin də! Bu sima XX əsrin adamı, Heydər Əlirza oğlu Əliyev oldu. Heydər Əliyevin 70-80-cı illərdəki nəhəng quruculuq və ictimai-siyasi fəaliyyəti olmasaydı, Azərbaycan indiki müstəqilliyinə nail ola bilməzdi. O, yenidən hakimiyyətə qayıtmasaydı Azərbaycan və Azərbaycan xalqı çox müsibətlərlə qarşılaşardı, dünya ictimaiyyəti Azərbaycan həqiqətlərindən indiki şəkildə xəbər tutmazdı. Tarix məqam gözləyirdi. Azərbaycanın xilaskarı Heydər Əliyev gəlib çatmasaydı az qala Azərbaycan, Vətən, torpaq, milli şərəf, milli dil, din və ibrətamiz keçmişimiz unudulacaqdı. Unudurduq ki, biz zülmün, təqibin, sürgünün, qəsdin acısını duymuş Bakıxanovun və Qutqaşınlının, Mirzə Cəlilin və Sabirin, Hadi və Səhhətin, Cavid və Cavadın, Müşfiq və Çəmənzəminlinin repressiyaya qurban gedən 29 min Azərbaycan ziyalısının həqiqi varisləriyik. O zaman hələ qol-qanadı tam bərkiməmiş, körpə uşaq kimi yenicə ayağa qalxmış Azərbaycanın başının üstünü fəlakət təhlükəsi aldı. Bunu görən sinəsi dağlı xalq Babək

qeyrətli, Nəbi hünərli, Cavanşir siyasətli oğlunu Heydər Əliyevi harayladı:

Heydər! Oğul, Tanrı sənə yar olsun,
Üzün gülsün, düşmənlərin xar olsun,
Bir əncam qıl ana yurdun halına
Bəlkə, bir gün zəfər himni çalına!

**II aparıcı:** Xalqın imdad səsini eşidib, ulu öndər özünü xalqın köməyinə yetirdi. Vətən göylərində Günəş kimi parladı, şimşək kimi çaxdı, müdrik Qorqud kimi didərgin xalqının önündə dayandı. Öz müdrik kəlamı, dərin ağlı, işıqlı zəkası, güclü siyasəti ilə prezident seçildi, dünya şöhrəti qazandı. Onun uzaqgörənliyi və siyasəti sayəsində Azərbaycanın haqq səsinə hay verməyən dünya indi Azərbaycan həqiqətlərini qəbul edir, ona dayaq durur. Bu gün torpaqlarımızda qan tökülmür, analar, bacılar yeni şəhid qəbirləri üstündə göz yaşı axıtmırlar. "Kəssə hər kim tökülən qan izini, Qurtaran dahi odur yer üzünü." Böyük ədibimiz H.Cavid sanki bu misraları ümummilli liderimiz Heydər Əliyevin haqqında demişdir.

**I aparıcı:** XX əsr bəşəriyyətə müdrik rəhbərlər, bacarıqlı dövlət xadimləri bəxş etmişdir. Bu gün fəxrlə deyə bilərik ki, belə xoşbəxt xalqlardan biri də Azərbaycan xalqıdır. Azərbaycanın tarixi dahi şəxsiyyətlərin tarixidir. Azərbaycanın müasir tarixi isə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Bəli, Azərbaycan dünyanın cənnət misalıdır. Heydər Əliyev də bu cənnət diyarın rəşadət, fədakarlıq, mərdlik, məğrurluq timsalıdır. O, Günəş kimi təmənnasız bir şəxsiyyət idi. Onun həyatının mənası Azərbaycan üçün daim yanmaq idi. Respublikamızın mütərəqqi fikirli, təmiz vicdanlı vətəndaşları çox gözəl bilir ki, Azərbaycan elminin, maarifinin, mədəniyyətinin inkişafı, tərəqqisi Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev qəlbləri ehtizaza gətirən, heç bir dəlilə, sübuta ehtiyacı olmayan, inandırıcı, məntiqi çıxışları ilə nəhəng

siyasətçiləri heyran edən əvəzolunmaz diplomat idi. Bunun nəticəsi olaraq bu gün müstəqil Azərbaycanın səsi ən mötəbər kürsülərdən gəlir. Bir neçə oxucu Heydər Əliyevin xatirəsinə yazılmış, Fikrət Qocanın "Vətən oğlu" şeirini söyləyirlər.

I oxucu:

Vətən oğlu, ata oldun bizə sən,
Ata kimi qayğımızı çəkirdin.
Şair kimi həssas idin sözə sən,
Danışıqda sözdən sözü çəkirdin.
Ölkə olduq sən arzuna çatanda,

II oxucu:

Bir əlin od, bir əlin su olurdu.
Millət rahat xumarlanıb yatanda,
Yuxun bir an quş yuxusu olurdu.
Yurdumuzda şan-şöhrətli hər nə var
Yatmadığın günlər, aylar, illərdi;

**III oxucu:**

Ziyarətə gəlir səni bu yollar...
Göz yaşımız məzarında güllərdi.
Sənin rəmzin Azərbaycan bayrağı,
Baş qoymağa, can verməyə hazırıq.
Dan ulduzum-yurdumuzun mayakı.

**IV oxucu:**

Şeir də bir təsəllidir, yazırıq.
Adın-sanın yenilməz bir ordudu,
İndi odlar diyarının özüsən...
Azərbaycan Heydərlərin yurdudu,
Gələcəyə baxanların gözüsən.

**II aparıcı:** Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan xalqı üçün böyük lider idi və o, siyasətə də elə lider kimi gəlmişdi. Liderlik öz-özünə baş vermir və bunu zorla xalqa qəbul etdirmək də mümkün deyil. Azərbaycan xalqı özü onu

lider kimi qəbul etdi və o, 30 ildən çox Azərbaycan dövlətinə başçılıq etdi. Çağdaş tariximizdə Azərbaycan dövlətinə bu qədər böyük bir zaman kəsiyində başçılıq etmiş Heydər Əliyevin dövlətçilik tariximizdə qoyub getdiyi irs bu gün də, sabah da öyrənilməlidir. Çünki bu irs o qədər zəngindir ki, onu araşdırmaq və lazımi səviyyədə öyrənmək üçün illər tələb olunur. Heydər Əliyev hər şeydən əvvəl öz zəmanəsinin övladı idi və o da başqaları kimi keçmiş Sovetlər Birliyinin bütün ağrılı-acılı günlərini görmüş, o dövrün və mövcud quruluşun ideyalarına sədaqət ruhunda tərbiyə olunmuşdu.

*Oxucular səhnəyə çıxıb aşağıdakı şeiri söyləyirlər:*

Mən nə deyim, necə yazım layiq olsun sözüm sənə,
Söyləmişəm dönə-dönə, söyləyirəm bunu yenə,
Fövqəlbəşər bir insandan qayəsi nur, özü də nur,
Ölümünü düşünəndə damarlarda qanım donur.
Alim dedi alimdir o, şair dedi şairdir o,
Novatordur, o rəssamdır, yaradıbdır canlı tablo.
Bu tablonun adı nədir? – Qoy söyləyim bilsin cahan
Müstəqillik biçimində formalaşıb Azərbaycan!
“Sarsılmazdır müstəqillik” deyə-deyə car da çəkdin,
Sözdə deyil, bunun üçün sən həyatda min ev tikdin.
Dünya dərdi neftlə bağlı siyasətin stoluna,
İndi bunlar işıq saçır müstəqillik yollarına.
Mədəniyyət, ədəbiyyat görünməmiş zirvə tutdu,
Parçalanan Azərbaycan sabitliyə qədəm atdı.
Yoxkən vardan mayalandı iqtisadi qüdrətimiz,
İtib gedən mənəviyyat durulandı, oldu təmiz.
Ordumuz da ayaq tutdu, püxtələşdi oldu mətin,
Dünya gəlib tabe oldu bayrağına siyasətin!
“Milli lider”, “Milli ata” sözlərində yatır vüqar,
Həm də Milli Qəhrəmansan, bənzərsizlik timsalın var.
Yazmamışam bu şeiri mən misra-misra, sətir-sətir,

Birnəfəsə yazmışam ki, türk elinə tutsun çətir,
Yer üzünə saçsın ətir!

**I aparıcı:** İnsan fəaliyyətinin elə bir istiqaməti yoxdur ki, Heydər Əliyev dühası, Heydər Əliyev zəkası oraya işıq saçıb nur çiləməsin. Heydər Əliyevin cəmiyyətin iqtisadi, siyasi, sosial, mədəni sahələrinin ən müxtəlif aspektlərini əhatə edən geniş diapazonlu və örnək olası fəaliyyəti, müasir dövrün ən aktual problemlərinə yaradıcı münasibəti onu milli liderdən, rəhbər və siyasi xadimdən bəşəri ideyaların carçısına, ümumbəşəri dəyərləri daim zənginləşdirən hikmət və söz sahibinə çevirmişdir. Mənim fikrimcə, Heydər Əliyev irsindən bəhrələnmək, faydalanmaq, onun hər bir fikrini, məsləhət və tövsiyəsini gündəlik iş prosesində əldə rəhbər tutmaq hər bir Azərbaycan vətandaşının borcudur. Çağdaş tariximizdə Azərbaycan dövlətinə ən çox rəhbərlik etmiş Heydər Əliyev özünə belə bir şöhrət çələngi hörmüşdür. Heydər Əliyev elə nadir şəxsiyyətlərdəndir ki, tarix belələrini əməlləri, fəaliyyəti ilə yaranır. Azərbaycanın Heydər Əliyev dövrü tariximizin ən şərəfli, ən şanlı səhifəsi hesab edilməyə layiqdir. Ulu öndər xarakter etibarilə qurucu, yaradıcı insandır. Heydər Əliyev bənzəri olmayan bir şəxsiyyətdir.Yaşadığı mənalı ömür, keçdiyi şərəfli həyat yolu xalqımıza örnəkdir. Müstəqillik illərində məhz ulu öndərimizin gərgin və titanik səyləri, müdrik siyasi kursu sayəsində Azərbaycan nəinki öz suverenliyini qoruyub saxlamış, onu əbədi prosesə çevirmiş, dünyanın qüdrətli dövlətləri səviyyəsinə yüksəltmişdir.

**II aparıcı:** Dahi şəxsiyyət Heydər Əliyev Azərbaycan xalqının xoşbəxt və firavan gələcəyi naminə çox işlər görmüşdür. Hakimiyyətin birinci mərhələsində biz onu daha çox qurucu, yaradıcı bir dövlət xadimi kimi görürüksə, artıq ikinci mərhələdə o, öz xalqının xilaskarı funksiyasını çox böyük məharətlə, ustalıqla yerinə yetirdi. Sadəcə olaraq bir faktı qeyd etmək

kifayətdir: Heydər Əliyev 1993-cü il iyunun 15-də yenidən hakimiyyətə qayıtmasaydı, çox güman ki, bugünkü müstəqil Azərbaycan Respublikasının taleyi də çox acınacaqlı ola bilərdi. Məhz həmin vaxt Azərbaycan xalqı müstəqilliyə yenicə qovuşmuş bir dövlətin idarə olunmasını ulu öndərimiz H.Əliyevə etibar etdi. Heydər Əlirza oğlu da öz öhdəsinə düşən bu xilaskarlıq missiyasını inamla həyata keçirdi və Azərbaycanı xilas etdi. H.Əliyev XX əsrin sonu və XXI əsrin əvvəllərində dünyanın ən tanınmış siyasi liderlərindən biri idi. Onu dünyanın əksər ölkələri və ən tanınmış siyasi xadimlər belə qəbul edir, onunla hesablaşırdılar.

**I aparıcı:** 1993-cü il iyunun 15-də ikinci dəfə hakimiyyətə qayıdandan sonra H.Əliyev Azərbaycanın inkişafı, milli dövlət quruculuğu, cəmiyyətimizdə demokratik dəyərlərin bərqərar olması və xalqımızın rifahının yüksəldilməsi sahəsində misilsiz xidmətlər göstərmişdir. Əsrlər boyu müstəqillik arzusu ilə yaşayan və öz azadlığı naminə dəfələrlə ölüm-dirim mübarizəsinə qalxan xalqımız məhz H.Əliyevin rəhbərliyi sayəsində istəklərini gerçəkliyə çevirə bildi. Təsadüfi deyil ki, öz həyatını sevdiyi Vətənin tərəqqisinə həsr etmiş bu dahi şəxsiyyət hələ keçmiş Sovet İttifaqı dövründən başlayaraq uzaqgörənliklə dövlət müstəqilliyimiz üçün zəmin hazırlamış, bu gün çoxlarının həsəd apardığı müstəqil respublikamızın nəhəng iqtisadi, elmi və mədəni potensialını yaratmışdır. *Monitorda H.Əliyevin hakimiyyətə qayıdışı və prezident kimi and içməsi kadrları göstərilir*.

**II aparıcı:** Heydər Əliyev çox maraqlı, mürəkkəb, zəngin, keşməkeşli bir ömür yolu keçmiş, həyatın bütün çətinliklərindən qalib çıxmış, öz zəhməti, zəkası, fitri qabiliyyəti ilə ən yüksək zirvəyə yüksəlmişdir. Bu uca zirvənin yolları daşlı-kəsəkli olsa da, polad iradəsi, dönməz xarakteri, şəxsiyyət bütövlüyü bu zirvəni fəth etməkdə ona kömək etmişdir. Bütün dünyanın etiraf

etdiyi böyük dövlət xadimi, görkəmli siyasətçi, müstəqil Azərbaycan dövlətinin memarı, zəmanəmizin nadir şəxsiyyətlərindən biri Heydər Əliyev çox zəngin irs qoyub getmişdir. Ulu Öndər Heydər Əliyevə həsr olunmuş sözləri Baba Vəziroğluna, musiqisi Kamala aid olan Ağadadaş Ağayevin ifasında "Sən elə bir zirvəsən" adlı mahnı səslənir. Mahnı səslənərkən ekranda Heydər Əliyevin fəaliyyəti dövründə uşaqlarla çəkdirdiyi şəkillər nümayiş olunur.
**I aparıcı:** Türkiyə dövlətçiliyi tarixində Mustafa Kamal Atatürk, ABŞ tarixində Ruzvelt, müasir Almaniya tarixində Adenauer, indiki Fransanın qurulmasında Şarl de Qoll, Hindistanın siyasi varlığında Cəvahirləl Nehru nə deməkdirsə, Heydər Əliyev də Azərbaycanın və ümumi sayı 50 milyondan artıq olan dünya azərbaycanlılarının tarixində o deməkdir. Onun fəaliyyəti mahiyyət etibarilə gələcəyə hesablanmış hərtərəfli inkişaf strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi demək idi. O illərdə xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində mümkün olmuş hər hansı tərəqqi və həyata keçirilmiş təşəbbüslər məhz ümummilli liderimizin gərgin əməyinin bəhrəsidir. Onun siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcridinə son qoyuldu, ümummilli böhran aradan qaldırıldı, ölkə bütün sabit inkişaf yoluna çıxdı. İndi isə gəlin məktəbli oxucularımızın ifasında Ulu öndər **Heydər Əliyevin söylədiyi hikmətli kəlamlar**a qulaq asaq. *Məktəblilər kəlamları söyləyirlər.*
1. Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir.
2. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz. Milli-mənəvi dəyərlərimiz bizim ana dilimizdir. Azərbaycan dilidir, bizim adət-ənənələrimizdir. Mənəvi-əxlaqi

mentalitetimizdir. Bunların hamısı ilə fəxr edirik və fəxr etməliyik.
3.Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir.
4. Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır.
5. Heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq.
6. Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir.
7. Ədalətsizliklə ədaləti bərpa etmək olmaz.
8. Bizim konstitusiyamız xalqın konstitusiyasıdır. Hər bir vətəndaşın konstitusiyasıdır.
9. Azərbaycan Respublikası dünya birliyi ilə tam hüquqlu inteqrasiyaya istiqamət götürmüşdür və bunun üçün bütün imkanlara malikdir.
10. Azərbaycan gəncləri Azərbaycanın gələcəyidir.
11. İslam dini əsrlər boyu bizim mənəviyyatımızın əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer tutmasını təmin etmişdir.
12. Xalqımızın içində böyük bir mədəniyyət potensialı, fitri istedad potensialı vardır.
13. Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.
14.Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir!
15. Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir və bizim qarşımızda duran vəzifə dövlət müstəqilliyini qorumaqdan, əbədi etməkdən ibarətdir.
16. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır.

17. Hər bir cəmiyyətdə savadlı şəxs müəllimə hörmət etməli, cəmiyyətin həyatında oynadığı rolu qiymətləndirməlidir.
18. Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır.
19. Bizim hamımızın bir vətəni var. Bu Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır.
20. Vətən, torpaq yolunda özünü qurban verənlərin xatirəsi qəlbimizdə daima yaşayacaq, onların şücaəti Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılacaqdır!
21. Xalqımızın birliyi və qələbəyə inamı gələcək uğurlarımızın təməlidir!
22. Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük sərvətidir.
23. Məqsədimiz xalqımızın mənəviyyatını qorumaq və zənginləşdirməkdir.
24. Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır.
25. Qarşımızda duran vəzifələrdən biri də gəncliyi daha yaxşı hazırlamaqdan, tərbiyə etməkdən ibarətdir.
26. İnsan mənəviyyat üçün yaşamalıdır, Mənəviyyatını qoruyan, yaşadan insan əbədi olacaqdır.
27. Müəllimlik çox şöhrətli bir sənətdir. Həqiqi müəllim olmaq cəmiyyət üçün doğrudan da çox qiymətlidir.
28. Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan qaldırmaqdan daha asandır.
29. Azərbaycan ən qədim zamanlardan dinlərin, dillərin və mədəniyyətlərin təmas və ünsiyyət yeri olmuşdur.
30. Böyük siyasəti kiçik hisslərə, xırda mənfəətlərə bağlamaq olmaz.

31. Kim müxalifətdə durursa-dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına, məsləkinə müxalifətdə durmasın.
32. Həqiqi mənəviyyatı milyonlara, milyardlara da almaq mümkün deyildir. Amma milyonları, milyardları olan adamlar cəmiyyətdə mənəviyyatsız heç bir şeydirlər.
33. Tarix həmişə hər şeyi öz yerinə qoyur.
34. Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.
35. Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir.
36. Başqasının fikrinə hörmət etmək, ondan faydalı bir şey götürmək qabiliyyəti hər bir adama lazımdır.
37. Hər bir insan həyatda öz yerini tapmalıdır. Amma öz yerini, özünə məxsus olan yerini tapmalıdır.
38. Heç kim əbədi qalib ola bilməz.
39. Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz.
40. Kim ki, biliyindən, bacarığından artıq iddialar edir o, həmişə məğlub olur.
41. Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir.
42. İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa, həmrəyliyə, birliyə dəvət etmişdir.
43. Sənətdə hər kəsin öz yeri var. Heç kəs kiminsə yerini almır.
44. Heç bir ölkəni özünə düşmən hesab etməməlisən.
45. Həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlılığı hər bir kəs özü seçir.
46. Rüşvətxoru, oğrunu qəhrəman etmək öz xalqına xəyanət etməkdir.
47. İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.

48. Sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır.
49. İlk işə başlayan şəxslərin üzərinə həmişə çox böyük, şərəfli vəzifələr düşür.
50. Öz ana dilini bilməyən adamlar şikəst adamlardır!
51. Ağıl olan yerdə zora ehtiyac yoxdur.
52. Rüşvətxorluq bizi içimizdən yeyir.
53. Yol-iqtisadiyyat, mədəniyyət, bir sözlə həyat deməkdir.
54. Xalqı həmişə mənəviyyat birləşdirmişdir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha üstündür.
55. Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir.
56. Vəzifədən ötrü yaşayan adamlar bədbəxt adamlardır.
57. Dövlət xalqın işi olmalıdır.
58. Dövlət onun ərazisində yaşayan əhalinin təminatçısı olmalıdır.
59. Bizim bütün təbii sərvətlərimiz xalqa məxsusdur və bu sərvətlərdən istifadə olunmasında heç kəsin müstəsna haqqı yoxdur.
60. Həqiqəti gizlətmək, həqiqətin üstünü basdırmaq olmaz.
61. Heç bir vətəndaş ictimai-siyasi həyata biganə qalmamalıdır.
62. Xalqla ordunun birliyi həm xalqın qüdrətini artırır, həm də ordunu daha qüvvətli edir.
63. Dünya ümumiyyətlə quruculuqla, tikib-yaratmaqla yaşayıb, inkişaf edib.
64. Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir.
65. Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir.
66. Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir.

67. Müstəqillik yolu qədər çətin yol yoxdur.
68.Ölkələr arasında dostluq münasibətlərinin möhkəmlənməsinə mədəniyyət və elm sahəsində əlaqələrin təsiri böyükdür.
69. Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır.
70. Xalq gərək daim öz kökünü xatırlasın.
71. Tariximizin hər səhifəsi bizim üçün əzizdir.
72. Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır.
73. Tariximiz bizim üçün dərs olmalıdır.
74. Tarix heç nəyi silmir.
75. Xalq milli əhvali-ruhiyyə ilə milli mənlik zirvəsinə qalxırsa, onun başında duran adamlar isə öz şəxsi mənafelərinə görə xalqın başından basılarsa, bax, bu, xalqın ən böyük faciəsidir.
76. Kiməsə qarşı ədalətsizlik edilibsə, bu ədalətsizliyin qarşısını ədalətlə almaq lazımdır. Amma ədalətsizliyə qarşı daha böyük bir cinayət törətmək, ədalətsizlikdən də betərdir.
77. Quran-şərifin bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yolları paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa dəvət edən tələblərdir, tövsiyələrdir.
78. Biz təbiətə qarşı zor işlədə bilmərik.
79. Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır.
80.Rəhbərlik etmək, yəni adamları öyrətmək və tərbiyələndirmək üçün gərək mənəvi haqqın olsun.
81. Hamı bir boyda ola bilməz, hamının eyni fikri ola bilməz.
82. Fikir müxtəlifliyi təbii hadisədir.
83. Qurani-Kərimin bütün kəlamları bu gün Azərbaycanda Allahın yolu ilə getməyimiz üçün məşəldir.
84. Dil böyük bir aləmdir.
85. Ana dilini bilməmək, ana dilini qiymətləndirməmək, şübhəsiz ki, xalq qarşısında böyük qəbahətdir.

86. Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur.
87.Xalq azadlıq uğrunda mübarizə apararkən qurbanlar verməlidir. Keçmişdə də belə olmuşdur, bu gün də belədir, gələcəkdə də belə olacaqdır.
88. Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tuturlar.
89.Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər.
90. Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik inqilabla olmur, təkamül yolu ilə, tədricən gedir.
91. Vətən müharibəsi bütün xalqın, hər bir vətəndaşın öz şərəf və namusunu qorumaq üçün aparılan müharibədir!
92. Ziyalıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin cəmiyyətdə hörmətini qaldırmaq lazımdır.
93. Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı, artist – bunlar fitri istedada malik olan nadir adamlardır.
94. Milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır.
95. Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdrusa, o insan mənəviyyatsızdır.
96. Gərək nəbzin Vətənin nəbzi ilə vursun.
97. Tənqid həmişə işə kömək edir.
98. Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir!
**II aparıcı:** Bəli, adı müasir tariximizə qızıl hərflərlə yazılan Heydər Əliyev bütün cəhətlərinə görə hər zaman zirvədə dayanacaq bir şəxsiyyətdir. Onun zəkası, ideyaları daim Azərbaycanın üzərində Günəş kimi parlayacaq, yolumuzu nura

qərq edəcək. Böyük öndərin yeganə amalı, yaşamaq devizi belə idi: Taleyin ona bəxş etdiyi fitri qabiliyyətini, bütün qüvvə və bacarığını, əqli və fiziki potensialını ana yurdu Azərbaycana həsr etmək! Heydər Əliyevin adı tarixə digər böyük xidmətləri ilə yanaşı, ilk növbədə müstəqil Azərbaycanın qurucusu kimi daxil olmuşdur. Heydər Əliyevin böyüklüyü ilk növbədə onun milliliyində, mənsub olduğu xalqa, adət-ənənələrə bağlılığında, vətənpərvərliyində idi. O, varlığı, duyğuları və yanğıları ilə əsl azərbaycanlı idi. Heydər Əliyevin həyatsevərliliyinin, bitib-tükənməyən həvəsinin təməlində ana Vətən, doğma Azərbaycan dayanırdı. Bu böyük insan köklərə möhkəm bağlı olduğuna görə güclü, qüdrətli idi. Böyük öndər bütün həyatı və fəaliyyəti boyu xalqını özünə arxa sanmış və özü də xalqa dayaq durmuşdur. Dillər əzbəri olan musiqisi Kamal, sözləri Baba Vəziroğluya aid olan "Xalq Heydər söyləyəcək – Heydər xalqım deyəcək" deyimi də məhz bu qırılmaz bağlılığın dəqiq ifadəsidir. *Bu vaxt sözləri və musiqisi Xanım İsmayılqızına aid olan "Dahi" mahnısı Faiq Ağayevin ifasında səslənir. Ekranda həmin musiqiyə çəkilmiş klip nümayiş etdirilir.*

**I aparıcı:** Heydər Əliyev Azərbaycan müstəqilliyinin tarixi yaradıcısıdır. O, neçə ömürlərə bəs edən ömür yaşamışdır. Qarşılaşdığı bütün dramatik şəraitlərdən, çıxılmaz və ağır anlardan o, yalnız qalib kimi çıxmışdır. Şair Nəsib Qaramanlı yazır: Bu Vətənə xidmətində, Bu millətə hörmətində, Bu dövlətin qüdrətində Yaşayır Heydər babamız! Əməli zəfər babamız!

Heydər Əliyev totalitarizm labirintlərindən Azərbaycanı məharətlə və salamat çıxarmışdır. Ulu öndər nəinki ölkədə sabitliyi bərqərar etdi, həmçinin Azərbaycanı dünya arenasında sayılıb-seçilən ölkələr içərisinə çıxardı.

**II aparıcı:** Bəli, böyük şəxsiyyətləri tarix yetişdirir. Onlar isə tarixdə əbədi iz qoyurlar. Heydər Əliyev böyük dövlət adamı, siyasi xadim, siyasət şahmatının məğlubedilməz qrossmeysteridir. O, müstəqil Azərbaycan Respublikasının bu gününün və gələcəyinin inkişafını təmin edən strategiyanın müəllifi olmuşdur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev, sözün əsl mənasında böyük ömür yaşadı. Lakin onun ideyalarının ömrü, qurduqlarının və yaratdıqlarının ömrü daha böyükdür. Bu sonsuza qədər uzunömürlülük onun öz əlləri ilə qurub yaratdığı və indi Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilən müstəqil Azərbaycan Respublikasının tərəqqisində, möhkəmlənməsində, qüdrətlənməsində təcəssüm edir. Bu gün dünyanın müxtəlif guşələrində yaşayan hər bir azərbaycanlı böyük iftixar hissi və vüqarla "Mən müstəqil Azərbaycan Respublikasının vətəndaşıyam" – deyə bilir, bununla fəxr edirsə, ulu öndərin Vətəni və Azərbaycan xalqı yolunda şərəfli mücadiləsini, ömrünü şam kimi əritməsini unuda bilməz. Heydər Əliyevin bu mənalı ömür yoluna neçə-neçə dastanlar, poemalar yazıldı. Gəlin bu gün o poemalardan birinə müraciət edək.

*Səhnəyə Xalq şairi Zəlimxan Yaqubun qələmə aldığı"Böyük Ömrün dastanı" poemasını sənələşdirən oxucular çıxırlar.*

**I oxucu (Şair):**
Verdi salamını müdriklər kimi,
Önümdə bir aqil qoca dayandı.
Qalxdı, ucalardan uca dayandı.

**II oxucu (Aqil qoca):**
"Eşitdim Heydərdən kitab yazırsan
Gəldim əllərini sıxmağa, oğul.
Dizində güc gərək, qəlbində təpər,
O qarlı zirvəni çıxmağa, oğul.
Gəril kaman kimi, dartıl yay kimi,

Bir düşün əsəri kimdən yazırsan.
Dövlətin dayağı, millətin ruhu,
Ən sağlam özüldən, himdən yazırsan.
Tərəzi deyilən elin gözüdü,
Səni də çəkəcək, kitabını da.
Ürəkdənmi gəlir, dodaqdanmı söz,
Çox dürüst verəcək cavabını da.
Rəssamın silahı rəngdi, fırçadı,
Memarın sərvəti qayadı, daşdı.
Sözdən elə yarat o heykəli sən,
Desinlər ən böyük heykəltaraşdı!
**I oxucu (Şair):**
Onun könül açan ürək sözləri,
Döndü qanadlara, döndü qollara.
Dahi bir insandan yazmaq eşqinə
Allahı çağırıb çıxdım yollara.
İnsan kökü oldu, mələk budağım,
Kökdən qanadlandım budağa doğru.
Çəkdi yaratdığım bu dastan məni
Vətənə, millətə, torpağa doğru.
Dilində səslənən hər müqəddəs ad
Dilimdə sərvətdi, damağımda dad.
Ey böyük sərkərdə, ey böyük ustad,
Hər sətrin səngərim, yarağım oldu.
Eşqim, məhəbbətim, gücüm, qeyrətim,
Baxışım, marağım, sevgim, heyrətim,
Zəvvarı azalmaz bir ziyarətim,
Səcdəgah deyilən torpağım oldu.
Gəldi dostluq günü, gəldi dost anı,
Qoymadım qılıncım qında paslana.
Adına yazdığım "Heydər dastanı"
Başımın üstündə bayrağım oldu.

**I aparıcı:** H. Əliyevin Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan kitabxana quruculuğu sahəsində də, misilsiz xidmətləri vardır. XX əsrin II yarısında respublikada kitabxana şəbəkələrinin inkişafı, kitabxanaların mərkəzləşdirilməsi, kitabxana fondlarının inkişafı, əhaliyə kitabxana xidmətinin yaxşılaşdırılması, kitabxanaların maddi-texniki bazasının və kadr potensialının möhkəmləndirilməsi istiqamətində Heydər Əliyevin gördüyü işlər danılmazdır. Müstəqillik dövründə kitabxanaların qorunub saxlanılması, kitabxana işinin inkişaf istiqamətləri və dövlətin kitabxana siyasətinin formalaşmasında Heydər Əliyevin rolu böyükdür. Bəli, Ümummilli lider Heydər Əliyev bütün sahələr kimi kitabxana sahəsində də nailiyyətləri böyükdür.

**II aparıcı:** Bəli, "Azərbaycan Heydər Əliyevin şah əsəridir" deyimi heç vaxt öz dəyər və aktuallığını itirməyəcəkdir. Çünki Heydər Əliyev həm də Azərbaycanı bütün dünyada tanıdıbdır. Bayrağımızın dünyanın nüfuzlu təşkilatlarının binaları qarşısında şəstlə dalğalanması, dünyanın inkişaf etmiş ölkələri ilə ikitərəfli və çoxtərəfli əlaqələri ulu öndərin həyata keçirdiyi uzaqgörən və məntiqi siyasətin nəticəsində baş veribdir. Ulu öndər böyük alim, böyük diplomat, böyük siyasətçi, böyük demokrat, böyük rəhbər idi. Heydər Əliyev haqqında çoxlu kitablar yazılıb, televiziya verlişləri hazırlanıb, oçerklər nəşr edilib: burada onun ancaq üzdə görünən xarakter cizgilərini təsvir etmək mümkün olub. Onun fenomen keyfiyyətlərinin üzdə görünməyən cəhətlərini təhlil etmək heç kimə müyəssər olmayıb. Beynəlxalq jurnalistlərin onu dünyanın 8-ci möcüzəsi hesab etmələri də təsadüfi xarakter daşımayıb. Onun hər çıxışında, müsahibəsində, məruzəsində, söhbətində söylədikləri fikirlər bizim üçün əxlaq dərsliyinə çevrilib, müqəddəs kəlam olub, məktəb olub. Ulu öndər sözün əsl mənasında xalq müəllimi idi. O, fenomen yaddaşa malik bir şəxsiyyət idi. Bu

gözəl kəlmələrdən sonra, yenə söz sevimli oxucularımızındır. *Gəlin onların ifasında sözləri Fəridə Ləmanın olan "Onu zaman seçib" şeirindən bir parçaya qulaq asaq.*

**I oxucu:**

Mənim Odlar yurdum – Azərbaycanım,
Heydərə söykənib, Heydər də ona.
O, elə müdrikdir, elə ağıllı,
Bu vətən onunla gələcək cana.

**II oxucu:**

Məqsədi, məramı Xalqdır, Vətəndir,
Qurduğu dövlətin təməli dağdır.
Mənim Heydər adlı Azərbaycanım,
Yurdumda əkizdir, həmişə vardır.

**III oxucu:**

O, Vətən daşıdır köksü bir ocaq,
Alışıb yanacaq hey zaman-zaman.
O, Qorqud atadır, el yiyəsidir,
Onun yollarına çökərmi duman?!
Onu zaman seçib.

**IV oxucu:**

Yad eldə qalmadı Cavidin qəbri,
Bir qolu Arazdı, bir qolu Kürdü.
O, aqil, vicdanlı əsl vətəndaş,
O, bu Vətən üçün incidi, dürdü.

**V oxucu:**

Tanıtdı dünyaya Azərbaycanı,
Bayraqlar üçündə bayrağım qalxdı.
Bir kəlmə sözünə neçə kürsüdən,
Milyonlar baş əyib, ayağa qalxdı.
Onu zaman seçib!

**I aparıcı:** H.Əliyev elə bir şəxsiyyət və lider olmuşdur ki, onun irsinin öyrənilməsinə daim ehtiyac var. Çox sevindirici haldır ki, bu ümumxalq işinin əlaqələndirilməsi üçün dövlətimiz mühüm bir addım ataraq H.Əliyev Fondunun yaradılması ilə milli öndərimizin adının əbədiləşdirilməsi, irsinin öyrənilməsi və təbliği istiqamətində mühüm əhəmiyyətli fəaliyyətin əsasını qoydu. Heydər Əliyev Fondu ulu öndərimizin adının əbədiləşdirilməsi, irsinin öyrənilməsi və təbliği istiqamətində çox geniş, çoxşaxəli fəaliyyət göstərir və eyni zamanda, fondun prezidenti, UNESKO-nun xoşməramlı səfiri, xalqımızın sevimlisi Azərbaycan Prezidenti cənab İlham Əliyevin xanımı Mehriban xanım Əliyevanın rəhbərliyi ilə milli təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafı sahəsində də xüsusi tədbirlər və layihələr həyata keçirilir. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə H.Əliyev Fondu öz fəaliyyətində gördüyü irimiqyaslı işlərlə öndərimizin ruhunu sevindirərək qəlblərimizdə, ürəklərimizdə daim yaşatmaqdadır. *Məktəblilərin ifasında Ulu öndərimiz H.Əliyevin sevimli nəvəsi Leylanın babasına həsr etdiyi Elegiya şeiri səslənir*.

Ulduzlara uçan quşa dönəydim,
Ay da yollarıma nur ələyəydi.
Məğrur yerişinlə qoşa dönəydin,
Sənə Yer üzündə yer eləyəydim.
Dinlə kədərimin pıçıltısını
Mən yaxşı bilirəm ayrılıq nədi!..
Küləklər könlümün qışqırtısını
Kaş ki, kainata yaya biləydi.
Könüllər yaşadır gur nəfəsini,
Sənsiz hər bir anın öz qüssəsi var.
Müqəddəs səsinin xatirəsini
Anlada bilərmi çağlayan çaylar?
Bulud karvanına qoşulum yenə,

Gəzim asimanı, hardasan görüm.
Çatıb ucalığa, yetişim sənə,
Əlimi əlindən yapışan görüm!
Acı göz yaşını sel elə gəlsin,
Ey yağış, soyumur dərdimin odu.
Qüssədən qocalan Ay dilə gəlsin,
Söyləsin, ruhunun haradı yurdu?
Dağ idin, çiynimi dağlara verdim,
Dağların dərdini çəksə, dağ çəkər.
Sənə məhəbbətim dağlar qədərdi,
Yerini dağlardan soruşum bəlkə?
Bəlkə çinarlarla baş-başa verim,
Görən qovuşarmı boyum boyuna?
Gərək sənə yetə bu qəmli şeirim,
Gərək sənə yetə...haqqım var buna.
Nurunu gözümdə saxlayım necə?
Möcüzə yaratmaq gəlmir əlimdən.
Parçalan, ey zülmət, çəkil, ey gecə,
Günəşə qovuşmaq istəyirəm mən!

**II aparıcı:** Səma təmiz olduqca, uzaq üfüqlər daha aydın görünür. Doğma vətənimizin göylərində qara buludlar çəkildikcə yeni, müstəqil Azərbaycanımızın gələcəyi daha parlaq, daha işıqlı görünür. O nurlu gələcək çox uzaqda deyil. Lakin unutmamalıyıq ki, biz də o şanlı tarixin yaradıcılarıyıq. Bunun üçün hörmətli prezidentimiz İlham Əliyev cənablarının ətrafında sıx birləşməli, öz işimiz, əməyimiz, hünərimizlə ona yardımçı olmalıyıq. Bunu bizdən həmişəlik əbədiyyətə qovuşan xalqımızın ümummilli lideri Heydər Əliyevin ruhu tələb edir! Müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafı yolunda əvəzsiz tarixi xidmətlərini nəzərə alaraq, milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması naminə misilsiz töhfələr vermiş Azərbaycan

xalqının ümummilli lideri Heydər Əliyev xalqımızın qəlbində əbədiyaşarlıq qazanmışdır. Heydər Əliyevin pak ruhu şəxsən bizim üçün bir ümid çırağıdır. Ulu öndərin ölməz ideyalarından güc alan bu çırağın şöləsi heç vaxt azalmayacaq, bu çıraq sabahın qurucuları olan biz yeniyetmələr üçün bir əbədi məşələ çevriləcəkdir! *Sonda "Azərbaycan" mahnısı ifa olunur.*

Tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin monitorda dediyi "Mən fəxr edirəm ki, Azərbaycanlıyam" sözlərini ayaq üstə, alqışlarla qarşılayırlar. Zala Azərbaycanın üçrəngli bayrağı gətirilir. Məktəbin istedadlı şagirdləri Heydər Əliyevə həsr olunmuş “Sən elə bir zirvəsən”mahnısını ifa edirlər.

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının biblioqrafiya şöbəsi “Azərbaycan Heydərlərin yurdudu” başlığı altında slayd, tam mətnli ədəbiyyat siyahısı hazırlayıb kitabxananın saytına yerləşdirmişdir. Həmin siyahıdan www.clb.az saytına daxil olmaqla istifadə edə bilərsiniz.

**Ədəbiyyat siyahısı**

Axundova E. Heydər Əliyev. Şəxsiyyət və zaman.I hissə : 1923-1969. - Bakı : Ozan, 2007. - 352 s.

Axundova E. Heydər Əliyev. Şəxsiyyət və zaman. II hissə : 1969-1982. - Bakı : Ozan, 2007. - 784 s. : foto, rəngli foto.

Axundova E. Heydər Əliyev. Şəxsiyyət və Zaman. Kreml beşilliyi. III hissə : 1982-1990. - Bakı : Ozan, 2009. - 804, [48] s. : rəngli foto

Axundova E.Heydər Əliyev. Şəxsiyyət və Zaman : həyat və fəaliyyətinin xronikası. IV hissə : 1969-1989. - Bakı : Ozan, 2008. - 328, [64] s. : foto.

Babayev X. (Hacı). Azərbaycançılıq, elmi-dini maarifçilik, mənəvi özünüdərk nümunəsi. - Bakı : Borçalı, 2004. - 144 s.

Böyük ömrün anları : Mustafa Kamal Atatürkün və Heydər Əliyevin şərəfli ömür yolundan bəhs edən fəlsəfi-publisistik foto-illüstrativ esse. - Bakı : Təhsil, 2004. - 220 s. : rəngli foto.

Çobanov M. Görkəmli strategiyaçı. - Bakı : Borçalı, 2004. - 48 s.

Əfəndiyev T. Heydər Əliyev mədəniyyət və ədəbiyyət = Heydar Alıyev Culture and eternity : siyasət. - Bakı : Təhsil, 2013. - 128 s. : rəngli foto, foto. – Kitab Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunur.

Əhmədova S. Heydər Əliyev və ədəbi-tarixi proses : monoqrafiya. - Bakı : Elm, 2013. - 156 s. : foto. - Ulu Öndər Heydər Əlirza oğlu Əliyevin 90 illik yubileyinə ithaf olunur.

Əhmədova S. Heydər Əliyevin dil siyasəti : monoqrafiya. - Bakı : İncə nəşriyyat evi, 2010. - 231 s.

Əliyev Q. Müasir Azərbaycanın banisi, xilaskarı, qurucusu. - Bakı : Şəms, 2006. - 520 s. : rəngli.foto, portr.

Əliyev T. Azərbaycanı dünyaya tanıdan Böyük İnsan : Heydər Əliyev-90. - Bakı : Oğuz Çap, 2013. - 226 s. : foto, rəngli foto.

Əliyev Z. Heydər Əliyev 85 : səhnəarxası görüşlər. - Bakı : UniPrint, 2008. - 102 s. : rəngli foto, portr.
Ərəstunoğlu R. Əbədiyaşar dahi insan... - Bakı : Araz, 2007. - 120 s. : foto, rəngli foto.
Hacıyev R. Azərbaycan gəncliyinin himayədarı : Heydər Əliyevin gənclər siyasəti (1993-2003-cü illər). - Bakı : Aspoliqraf, 2014. - 192 s. : rəngli foto.
Həsənov K. Ömürdən səhifələr : Memuar-kitab. - Bakı : Şəms, 2008. - 176, [6] c. : rəngli foto.
Həsənova M. Heydər Əliyev və Azərbaycan dövlətçiliyində qadın məsələsi. - Bakı : Elm, 2001. - 80 s. : rəngli foto.
Heydər Əliyev - müstəqil Azərbaycanın neft emalı sənayesinin banisidir = Heydar Aliyev is the founder of oil refining industry of independent Azerbaijan. - Ankara : [s. n.], 2003. - 145 s.
Heydər Əliyev : Azərbaycan bütün azərbaycanlıların vətənidir. - Bakı : Azərbaycan, 2000. - 143 s. : rəngli foto.
Heydər Əliyev adına. Fotoalbom : Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunur. - Bakı : Renessans, 2013. - 496 s. : rəngli foto. - (supercildli).
Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab. - Turkiye : Nurol printing & Packaging industry inc., 2001. - 439 s. : rəngli foto. - Şəxslərin siyahısı: s. 432-438. - (super cildli).
Heydər Əliyev mədəni irsimizin keşiyində. II kitab. - Turkiye : Nurol printing & Packaging industry inc., 2001. - 439 s. - (super cildli).
Heydər Əliyev məktəblilərin gözü ilə. VII kitab. - Bakı : Təhsil, 2013. - 352 s. : rəngli foto. Heydər Əliyev məktəblilərin gözü ilə. VIII kitab. - Bakı : Təhsil, 2014. - 304 s. : rəngli foto.
Heydər Əliyev və Azərbaycanın Milli Qəhrəmanları : Ümummilli Liderimiz Heydər Əliyevin 90 illik yubleyinə həsr

edilmişdir. - Bakı : Abşeron nəşr MMC, 2013. - 224 s. : xəritə, rəngli foto.
-Ümumilli Liderimiz Heydər Əliyevin 90 illik yubileyinə həsr edilmişdir. Heydər Əliyev və mədəni irs = Heydar Alıyev and cultural herıtage. - Bakı : [s. n.], 2014. - 200 s. : rəngli foto, foto. - Azərbaycan və ingilis dillərində. - (albom).
Heydər Əliyev və mədəniyyət : 3 cilddə.I cild : 1969-1982, 1993-1996 : müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar. - Bakı : Nurlar, 2008. - 504 s. : foto, rəngli foto.
Heydər Əliyev və mədəniyyət : 3 cilddə.II cild : 1997-1998 : müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar. - Bakı : Nurlar, 2008. - 520 s. : foto, rəngli foto.
Heydər Əliyev və mədəniyyət : 3 cilddə. III cild : 1999-2003 : müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar. - Bakı : Nurlar, 2008. - 536 s. : foto, rəngli foto.
Heydər Əliyev və uşaqlar : Metodik vəsait. - Bakı : Azərbaycan Mili Kitabxanası, 2008. - 126 s. - Ulu öndər Heydər Əliyevin anadan olmasının 85 illik yubileyinə həsr edilir.
Heydər Əliyev. Dövlət xalq üçündür [Brayl] : 3 cilddə.I cild : Kəlamlar, sitatlar, aforizmlər. - Bakı : Brayl Mərkəzi MMC, 2015. - 144 s. - Kitab Brayl əlifbası ilə çap olunmuşdur.
Heydər Əliyev. Dövlət xalq üçündür [Brayl] : 3 cilddə. II cild : Kəlamlar, sitatlar, aforizmlər. - Bakı : Brayl Mərkəzi MMC, 2015. - 144 s. - Kitab Brayl əlifbası ilə çap olunmuşdur.
Heydər Əliyev. Dövlət xalq üçündür [Brayl] : 3 cilddə.III cild : Kəlamlar, sitatlar, aforizmlər. - Bakı : Brayl Mərkəzi MMC, 2015. - 144 s. - Kitab Brayl əlifbası ilə çap olunmuşdur.
Heydər Əliyev. Prezident. I kitab. - Bakı : [s. n.], 1999. - 237 s. : rəngli foto. - Azərbaycan, rus və ingilis dillərində.
Heydər Əliyev. Prezident. II kitab. - Bakı : [s. n.], 1999. - 183 s. : rəngli foto. - Azərbaycan, rus və ingilis dillərində.

Heydər Əliyevin dil siyasəti : Rəsmi sənədlər. - Bakı : Şirvannəşr, 2009. - 133 s. : rəngli şək.
Heydər Əliyevin Neft Strategiyası. Azərbaycanın Müstəqilllliyi və Rifahı Naminə. I hissə. - Turkiye : Nurol printing & Packaging industry inc., 2001. - 496 s. : foto, rəngli.
Xalqa bağışlanan ömür. VIII kitab. - Bakı : Şəms, 2005. - 384 s. Xələfov A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. - Bakı : Azərnəşr, 2006. - 312 s.
Kazımzadə A. Heydər Əliyev və kinematoqraf. - Bakı : Apostrof, 2011. - 212 s. : rəngli foto.
Qasımlı M. Heydər Əliyev – İstiqlala gedən yol (1969-1987-ci illər). – Bakı : Bakı Universiteti Nəşriyyatı, 2006. – 608 s. : foto. Rəngli şək. – Azərbaycan, ingilis, rus, türk və ərəb dillərində. Mahmudov Y. M. Heydər Əliyev ideyalarının zəfər yürüşü. – Bakı : Təhsil, 2011. – 608 (548+60) s. : portr., rəngli foto. Mirələmov H. Bir günəş var : Tarixi-publisistik düşüncələr. – Bakı : Səda, 2004. – 240 s.
Mirələmov H. Həqiqət : Publisistik düşüncələr. – Bakı : Azərbaycan, 2003. – 448 s. : rəngli foto. Mirələmov H. İşığın izi ilə : Tarixi-ədəbi esse. – Bakı : Azərbaycan, 2004. – 288 s.
Mirələmov H. Millətin atası : Publisistik düşüncələr, tarixi esselər, məktublar. – Bakı : Azərbaycan, 2004. – 288 s.
Mirələmov H. Zəfər yolu : Esse. – Bakı : Gənclik, 2003. – 66 s. : rəngli foto.
Mirzə V. Azərbaycan dövlətçiliyinin qoşa qanadı. II. – Bakı : Təhsil, 2006. – 344 s. : rəngli foto.
Mirzəyev R. Heydər Əliyev Azərbaycanın müasir neft emalı sənayesinin yaradıcısıdır. – Bakı : [s. n.], 2001. – 124 s.
Mirzəyev R. Heydər Əliyev və Müstəqil Azərbaycan Dövlətinin yeni neft strategiyası = Heydar Aliyev and new oil strategy of independent Azerbaijan. – Bakı : Göytürk, 1999. – 89 s. : rəngli foto. – Azərbaycan və ingilis dillərində.

Mirzəzadə R. Azərbaycanı dünyaya tanıdan insan. – Bakı : Göytürk, 1998. – 335 s. : rəngli şək.
Müstəqilliyimizin memarı. I kitab. – Bakı : Yazıçı, 2010. – 296 s. Şükürov S. Millət atası. – Bakı : Təhsil, 2000. – 208 s.
Elektron resurslar Andriyanov, V.İ. Heydər Əliyev [Elektron resurs] = Гейдар Алиев = Geidar Aliev = فاىلع رديح – .Bakı : [s. n.], 2008. – 1 el. Opt. disk (DVD-ROM). – (Görkəmli Adamların Həyatı). – Azərbaycan, rus, ingilis və ərəb dillərində. Fəridə L. Onu zaman seçib [Elektron resurs]. - film. - Bakı : Bəyaz gecələr, 2009. - 1 el. opt. disk (DVD-ROM) : rəngli. ; 12 sm.
Heydər Əliyev. Azərbaycan mədəniyyətinin hamisi [Elektron resurs]. - Bakı : Salnamə, 2007. - 1 el. opt. disk (DVDROM)prov. : 45 ob/min, 12 sm.
Mən fəxr edirəm ki, Azərbaycanlıyam [Elektron resurs]. - Electron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : birrəngli : rəngli şəkillər ; 12 sm. - (Nizami layihəsi - (qutuda).

**Bədii əsərlər**

Bağırov B. Sönməz günəş : poema. I hissə. - Bakı : Nurlan, 2002. – 201 s. - (qutuda).
Bağırov B. Sönməz günəş : poema. II hissə. - Bakı : Nurlan, 2002. - 233 s. - (qutuda).
Günər M. Bir oğul göstərin Heydərə bənzər : Məktub, xatirə, şeir. - Bakı : Nağıl evi, 2009. - 115 s. : rəngli foto.
Günəşə qovuşmaq istəyirəm mən : Azərbaycan şairlərinin Ümummilli lider Heydər Əliyevə həsr olunmuş şeirləri. - Bakı : Çinar - Çap, 2008. - 61 s. : rəngli foto.
Mehdi M. Heydər Baba - Heydər dədə : Poeziya. - Bakı : Adiloğlu, 2004. - 34 s.

Namaz M. Günəş ömürlü insan : Hekayələr və şeirlər. - Bakı : Təhsil, 2012. - 32 s. : şək., rəngli foto. Qacar M. Xilaskar : Poema. - Bakı : Ulduz, 2004. - 58 s.
Qayalı Z. Əziz rəhbər : Ulu öndər. - Bakı : Təkan, 2013. - 40 s.
Ülvi Ə. Heydər baba nəğməsi : Şeirlər. - Bakı : Şirvannəşr, 2006. - 112 s.
Yaqub Z. Əbədiyyət dastanı : poemalar. - Bakı : Pedaqogika, 2008. - 265 s. : rəngli foto. - I kitab: Böyük ömrün dastanı ; II kitab: Böyük ömrün davamı. - (qutuda).

**Azərbaycanın xilaskarı və memarı Heydər Əliyev**

**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 22
Çapa imzalanmışdır: 02.05.2020
Tirajı:100
Pulsuz